YENİ AZƏRBAYCAN

24 iyul
2026-cı il,
cümə
№ 129 (7196)
Qiyməti
60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.



Milli azadlıqdan
şirin nemət yoxdur!

# Azərbaycan - Almaniya tərəfdaşlığı yeni mərhələdə...

## Birgə Bəyannamə: əlaqələr dərinləşir, münasibətlər strateji müstəviyə qədəm qoyur



Bax səh. 2

# Prioritet hədəf: Əhalinin məşğulluğunun artırılması

Bax səh. 3

## BTQ fəaliyyətini genişləndirir

Burkina-Faso Xarici İşlər Nazirliyi öz rəsmi "Facebook" səhifəsində Bakı Təşəbbüs Qrupu (BTQ) ilə imzalanmış Anlaşma Memorandumu barədə məlumat yayıb. Bakı Təşəbbüs Qrupundan verilən məlumata görə, sənəd 2026-cı il iyulun 11-də Bakı şəhərində Burkina-Faso Xarici İşlər Nazirliyinin Qabaqcıl Beynəlxalq Araşdırmalar İnstitutu (INHEI) və BTQ-nin icraçı direktoru Abbas Abbasov tərəfindən imzalanaraq beynəlxalq hüquq normalarına uyğun şəkildə qüvvəyə minib.

Memorandum tərəflər arasında elmi-tədqiqat, təlim, akademik mübadilə və strateji dialoq sahələrində uzunmüddətli əməkdaşlığın hüquqi çərçivəsini müəyyən edir. Sənəd çərçivəsində ekspert, tədqiqatçı və s. mübadiləsinin təşkili, birgə tədqiqat layihələrinin həyata keçirilməsi, INHEI-nin tələbələri, diplomatlar və akademik heyəti üçün seminar, təlim proqramları, konfranslar və ekspert müzakirələrinin keçirilməsi nəzərdə tutulur. Bu əməkdaşlıq INHEI-nin heyəti üçün aparıcı beynəlxalq məktəblər və tədqiqat mərkəzləri ilə əlaqələrin genişləndirilməsinə və peşəkar səriştənin artırılmasına yeni imkanlar açacaq. INHEI-nin baş direktoru Filip Sandvidi bildirib ki, BTQ ilə qurulan əməkdaşlıq Burkina-Fasonun ali rəhbərliyi tərəfindən irəli sürülən beynəlxalq tərəfdaşlıqların şaxələndirilməsi siyasətinə tam uyğundur və ölkənin diplomatik fəaliyyətinin beynəlxalq arenada gücləndirilməsinə töhfə verəcək.

Qeyd edək ki, bu əməkdaşlıq BTQ-nin fəaliyyət coğrafiyasının Afrika istiqamətinə yayılmasında mühüm addım kimi...

Bax səh. 5



Bax səh. 4

## YAP Sədrinin müavini Tahir Budaqov Çin Kommunist Partiyasının nümayəndə heyəti ilə görüşüb

## Azərbaycan "PowerChina Resources Ltd." ilə günəş və külək enerjisi layihələrinin inkişafını müzakirə edib

Bax səh. 5

## Yeni "nüvə mübahisəsi" başlayır

Bax səh. 7

## Bakıda AQEM-in sammiti keçiriləcək

Azərbaycan beynəlxalq platformalarda fəal iştirak edir. Ölkəmizin xarici siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlıq mühüm yer tutur. Bu baxımdan, Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəsi (AQEM) çərçivəsində fəaliyyəti xüsusi vurğulanmalıdır. Ölkəmiz hazırda bu təşkilata sədrlik edir.

Yeri gəlmişkən, iyulun 22-də Astana şəhərində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Katibliyinin inzibati binasında Azərbaycanın sədrliyi ilə AQEM Yüksək Səviyyəli Şəxslər Komitəsinin növbəti iclası keçirilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, Komitənin iclasında Azərbaycanın "Daha güclü AQEM: rəqəmsallaşma, bağlantılar və Asiyada dayanıqlı inkişaf" mövzusunda AQEM Sədrliyi çərçivəsində üzv dövlətlər arasında etimadın gücləndirilməsi və əməkdaşlığın genişləndirilməsi ilə bağlı aparılmış fəaliyyətlər müzakirə olunub.

Sədrlik tərəfindən AQEM-in beynəlxalq təşkilata transformasiyası gündəliyi üzrə gedən inkişaflar, o cümlədən müvafiq Nizamnamə layihəsi üzrə aparılan danışıqlar çərçivəsində irəliləyişlər barədə məlumat təqdim edilib və üzv dövlətlərin mövqeləri ətrafında fikir mübadiləsi aparılıb. İclasda cari ildə Bakı şəhərində keçiriləcək AQEM Zirvə Görüşünə hazırlıq məsələləri, habelə Azərbaycan Sədrliyi tərəfindən təklif olunan Zirvə Görüşünün mümkün yekun sənəd layihələri üzrə ilkin müzakirələr baş tutub. Bundan əlavə, Komitənin gündəliyinə uyğun olaraq...

Bax səh. 5



## Yaxın Şərq yenidən od-alov içində...

Bax səh. 7

## ABŞ-da yeni şatdaun olacaqmı?




Bax səh. 6

# Azərbaycan - Almaniya tərəfdaşlığı yeni mərhələdə...

## Birgə Bəyannamə: əlaqələr dərinləşir, münasibətlər strateji müstəviyə qədəm qoyur



Orta güc statusunda yeni nizamda aktiv rol alan Azərbaycan çox qısa müddətdə qlobal güc mərkəzləri ilə münasibətlərini müasir çağırışlar üzərindən bərabərhüquqlu səviyyədə müəyyənləşdirə bilib. Post-müharibə dövründə Cənubi Qafqaz geostrateji coğrafiyasında real təhlükəsizlik mühiti formalaşdıran Bakı bununla qlobal münasibətlər sisteminə yeni nəfəs gətirib. Bu isə tərəfdaşlıq əlaqələrinin daha da irəliyə aparılması prosesində yeni ştrixlər formalaşdırıb - nəticə etibarilə, qısa zamanda qardaş Türkiyə ilə imzalanan strateji müttəfiqliklə bağlı Şuşa Bəyannaməsi, Çin Xalq Respublikası ilə imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat", ABŞ ilə imzalanan Strateji Tərəfdaşlıq Xartiyası Bakının geopolitik xəritədəki uğurlu yerini müəyyənləşdirib.

Prezident İlham Əliyevin bir neçə gün əvvəl Almaniyaya baş tutan rəsmi səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə" bu strateji yolun davamıdır.

**Birgə Bəyannamənin mahiyyəti...**

Qeyd edək ki, Birgə Bəyannamə Azərbaycan ilə Almaniya arasındakı uzunmüddətli dostluq münasibətlərinin, tərəfdaşlığın məntiqi nəticəsi kimi meydana çıxıb. Bu sənəd hər iki dövlətin qarşılıqlı etimada və müxtəlif sahələrdə maraqların üst-üstə düşməsinə əsaslanan ikitərəfli tərəfdaşlıq və əməkdaşlığı dərinləşdirməklə bağlı qarşılıqlı arzularının təsdiqidir. Hər zaman beynəlxalq hüquqa istinad edən, dövlətlərin suverenliyinə və müstəqilliyinə hörmətlə yanaşan Azərbaycan imzalanan bu sənəddə də öz mövqeyini açıq şəkildə bəyan edib - bildirilir ki, hər iki dövlət qarşılıqlı şəkildə suverenliyə, müstəqilliyə və ərazi bütövlüyünə hörmətlərini xatırlayaraq, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, Helsinki Yekun Aktına, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına, sülhü və təhlükəsizliyi təşviq edən digər beynəlxalq hüquqi sənədlərə birgə sadiqliklərini bir daha təsdiqləyirlər.

Eyni zamanda, əməkdaşlığın daha intensiv xarakter almasına, tərəfdaşlığın daha da dərinləşməsinə xidmət edən bu Birgə Bəyannamə Cənubi Qafqazdakı sülh prosesini də dəstəkləyir - tərəflər Azərbaycan-Ermənistan münasibətlərindəki tarixi irəliləyişi, xüsusilə də 2025-ci il 8 avqust tarixli Vaşinqton Zirvə Görüşünün nəticələrini və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan sonrakı sülh addımlarını alqışladıqlarını ifadə ediblər. Almaniya öz növbəsində iki ölkənin regionda davamlı sülhə nail olmağa hədəflənmiş səylərini tam dəstəklədiyini bir daha təsdiqləyib.

Birgə Bəyannamənin preambulasında həmçinin Azərbaycan - Avropa İttifaqı münasibətlərinin daha da inkişaf etdirilməsi perspektivindən bəhs olunur. Vurğulanır ki, tərəflər Azərbaycan-Avropa İttifaqı (Aİ) tərəfdaşlığının strateji əhəmiyyətini vurğulayır və siyasi dialoqun və praktik əməkdaşlığın daha da dərinləşdirilməsi məqsədilə artan əməkdaşlığı qeyd edirlər. Onlar, həmçinin yenilənmiş Azərbaycan-Aİ Tərəfdaşlıq Prioritetlərinin qəbul edilməsinin və Azərbaycan Respublikası ilə Aİ arasında mövcud dialoq mexanizmlərindən tam həcmdə istifadənin əhəmiyyətini vurğulayırlar. Hər iki dövlət Azərbaycan ilə Aİ üzv dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi səylərini yüksək dəyərləndirirlər.

**Müsbət siyasi dialoq mühiti....**

Qeyd edək ki, imzalanan Bəyannamə əməkdaşlıq sektorlarının daha da genişləndirilməsi, dəqiqləşdirilməsi istiqamətində də mühüm addımdır. Belə ki, Bəyannamənin birinci bəndində vurğulanır ki, siyasi və diplomatik əməkdaşlıq ön plana çəkilir. Nazirliklər və qurumlar arasında müntəzəm məsləhətləşmələr, yüksəksəviyyəli səfərlərin mübadiləsi, qarşılıqlı faydalı əməkdaşlıq sahələrinin daha da dərinləşdirilməsi üçün məxsusi-məzmunlu yüksəksəviyyəli dialoqlar, ortaq maraq kəsb edən ikitərəfli, regional və beynəlxalq məsələlər üzrə praktiki əməkdaşlığın gücləndirilməsi vacib şərtlərdən hesab olunur.

Qeyd edək ki, Azərbaycan ilə Almaniya arasında siyasi münasibətlər qarşılıqlı hörmətə, etimada və beynəlxalq hüquqa əsaslanır. İki ölkə arasında bir sıra məsələlər üzrə yüksəksəviyyəli dialoq mühiti hökm sürür. Eləcə də qarşılıqlı səfərlər, istər hökumət nümayəndələri, istərsə də parlament səviyyəsində ikitərəfli əlaqələrin genişləndirilməsi iki dövlət arasında tərəfdaşlığın dərinləşdirilməsinə xüsusi əhəmiyyət qatır. Təsadüfi deyil ki, Almaniya Azərbaycanı Cənubi Qafqaz regionunda mühüm tərəfdaşlarından biri kimi dəyərləndirir.

Bunun qarşılığında Azərbaycan da rəsmi Berlini yerləşdiyi geostrateji coğrafiyanın aparıcı lider dövləti kimi tanıdığını hər zaman bəyan edir. Bir çox məsələlərdə tərəflərin mövqeləri uzlaşır. Bu isə siyasi dialoqun çoxşaxəli və qarşılıqlı maraqlara xidmət etməsinə imkan yaradır. Birgə Bəyannamədə toxunulan bu məsələ gələcəkdə əməkdaşlığın daha da genişləndirilməsi, qlobal siyasi müzakirələrdə qarşılıqlı dəstəyin verilməsi baxımından əhəmiyyətlidir.

**İqtisadi prioritetlər müəyyənləşdirilir...**

Birgə Bəyannamədə qeyd edilən digər bir məqam isə iqtisadi və ticarət əməkdaşlığıdır. Bu bəndə əsasən tərəflər ikitərəfli ticarətin və sərmayə imkanlarının təşviqi, ikitərəfli iqtisadi əlaqələrin təşviqi mexanizmi kimi ticarət və sərmayə üzrə Almaniya-Azərbaycan Yüksək Səviyyəli İşçi Qrupunun fəaliyyətinin davam etdirilməsi, kənd təsərrüfatı, davamlı iqtisadi inkişaf, yaşıl enerji, yaşıl və aşağıkarbonlu hidrogen, enerji səmərəliliyi kimi sahələrdə əməkdaşlığın tam potensialından istifadə edərək, bağlantılar və infrastruktur, qaz da daxil olmaqla enerji axınları, iqlim fəaliyyəti və ətraf mühitin mühafizəsi, eləcə də davamlı su ehtiyatlarının idarə olunması kimi qlobal və regional əhəmiyyətli məsələlər üzrə əməkdaşlığın artırılmasına diqqət ayırırlar.

Azərbaycan Prezidenti İlham Əliyevin və Almaniyanın Kansleri Fridrix Mertsin Berlində baş tutan mətbuat konfransında qeyd olunduğu kimi, hazırda qarşılıqlı ticarətin həcmlərinin daha artırılması üçün əlavə səylər göstərilir. İmzalanan Birgə Bəyannamə də təsdiqləyir ki, gələcək illərdə ticarət dövriyyəsinin şaxələndirilməsi ilə bağlı daha fəal addımlar atılması nəzərdə tutulur. Azərbaycan hazırda enerji siyasətində yeni gündəlik müəyyən edib, "yaşıl enerji" ehtiyatlarının Xəzər-Qara dəniz-Avropa kabeli ilə Aİ bölgəsinə çatdırılması istiqamətində səylərini davam etdirir. Bu siyasət Azərbaycan ilə Aİ, o cümlədən Almaniya arasında bərpaolunan enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsində yeni mərhələ deməkdir.

Vurğulanmalıdır ki, Almaniya-Azərbaycan Ticarət və İnvestisiyalar üzrə Yüksək Səviyyəli İşçi Qrupu iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafını koordinasiya edən əsas hökumətlərarası əməkdaşlıq mexanizmlərindən biridir. Qrupun məqsədi ticarətin genişləndirilməsi, qarşılıqlı investisiyaların təşviqi və biznes mühitinin yaxşılaşdırılması üzrə hökumətlər arasında daimi dialoqu təmin etməkdir. İşçi Qrupu 5 may 2011-ci ildə təsis edilib. Onun yaradılmasının əsas məqsədi Azərbaycan və Almaniya arasında iqtisadi əlaqələri sistemli şəkildə inkişaf etdirmək, dövlət qurumları ilə özəl sektor arasında əməkdaşlığı gücləndirməkdir. İşçi Qrupunun fəaliyyət istiqamətləri əsasən ikitərəfli ticarətin artırılması, qarşılıqlı investisiyaların təşviqi, Alman şirkətlərinin Azərbaycanda fəaliyyətinin genişləndirilməsi, sənaye parkları və xüsusi iqtisadi zonalarda əməkdaşlıq, bərpa olunan enerji və enerji səmərəliliyi, nəqliyyat və logistika, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı, turizm, peşə təhsili və insan kapitalının inkişafı, kiçik və orta sahibkarlığın dəstəklənməsinə hədəflənib. Qeyd edək ki, İşçi Qrupun iclaslarında aparılan müzakirələrdə biznes şuralarının yaradılması və sahibkarlar arasında əlaqələrin gücləndirilməsi aparıcı mövzulardan biri kimi yer alıb. Təsadüfi deyil ki, Berlində baş tutan mətbuat konfransında Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması ilə bağlı razılıq əldə edildiyi vurğulanıb.

**Müdafiə və təhlükəsizlik üzrə...**

Birgə Bəyannamədə həmçinin təhlükəsizlik və müdafiə sahələri üzrə əməkdaşlığın inkişaf etdirilməsi də nəzərdə tutulur. Razılaşmaya əsasən insan və narkotiklərin qanunsuz dövriyyəsi, mina təmizləmə sahəsində əməkdaşlıq və yardım da daxil olmaqla regional və qlobal təhlükəsizlik məsələləri üzrə nazirlər səviyyəsində dialoqun davam etdirilməsi, müdafiə sənayesində əməkdaşlığın təşviqi, Müdafiə Akademiyaları və qurumları arasında mütəxəssis və tələbə mübadiləsinin davam etdirilməsi, ortaq narahatlıq doğuran sahələrdə məlumat və ən yaxşı təcrübələrin mübadiləsi kimi mühüm addımlar yaxın gələcəkdə tərəfdaşlığın daha da gücləndirilməsinə töhfə verəcək.

Vurğulanmalıdır ki, Azərbaycan ilə Almaniya arasında müdafiə və təhlükəsizlik sahəsində mühüm bir əməkdaşlıq xətti mövcuddur. Müdafiə qurumları arasında demək olar ki, hər il hərbi əməkdaşlıq proqramı imzalanır. Bu proqramlar hərbi təhsil, təlim və Qərargah danışıqlarını əhatə edir. İkitərəfli əməkdaşlıq planları təlim sahəsində təcrübə mübadiləsində də böyük əhəmiyyət daşıyır. Nəzərə alsaq ki, Almaniya həm də NATO-nun mühüm tərəfdaşlarından biri sayılır və Azərbaycan başqa bir aparıcı NATO ölkəsi olan Türkiyə ilə də müttəfiqdir, bu addım ölkəmizin strateji müdafiə sahəsində mühüm üstünlüklər qazanmasına imkan yaradır.

**Humanitar sahədə əməkdaşlıq...**

Eyni zamanda sənəddə mədəniyyət, təhsil, dil və insanlararası mübadilələr, elm, texnologiya və innovasiya sahələri üzrə əməkdaşlığın genişləndirilməsi iradəsi də nümayiş etdirilir. Bu isə özlüyündə rəqəmsal transformasiya, sənaye modernləşdirilməsi və inkişafda olan texnologiyalar sahəsində əməkdaşlığın təşviqi, təhsil və elm sahələrində müttəfiqliyi stimullaşdırır. Paralel olaraq sənəddə qeyd edilən bəndlər iki ölkə arasında qarşılıqlı anlaşmanı, mədəniyyətlərarası və dinlərarası dialoqu təşviq edən mədəni mübadilə fəaliyyətləri və proqramlarını, innovativ və rəqəmsal təhsil, peşə təhsili, birgə tədqiqat layihələri və akademik mübadilələr üzrə gələcək əməkdaşlıq imkanları barədə dialoq perspektivlərini daha da gücləndirir. Dünyada tolerantlıq nümunəsi sayılan, eləcə də yüksək rəqəmsal inkişaf prioritetlərinə malik Azərbaycanın Almaniya ilə tərəfdaşlığı bu sahələrdə qarşılıqlı fayda vəd edir. Qeyd edək ki, Bəyannamədə həmçinin sənəddə qeyd edilən fəaliyyətlərin həyata keçirilməsi resursların mövcudluğuna tabe və Tərəflərin müvafiq qanun və qaydalarına uyğun olacağı da vurğulanır.

**İnvestisiya mühiti genişlənir**

Xüsusi diqqət çəkən məqamlardan biri isə iki ölkə arasında Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması ilə bağlı razılığın əldə edilməsidir. Qeyd edildiyi kimi, Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri zamanı "Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamə" imzalanıb. Bu sənəd iki ölkə arasında iqtisadi münasibətlərin yeni institusional mərhələyə keçidini - dövlət qurumları ilə özəl sektor arasında sistemli, davamlı və nəticəyönümlü dialoq mexanizmi formalaşdırır. Biznes Şurası iki ölkənin biznes dairələri arasında birbaşa əlaqələrin genişləndirilməsi və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi üçün platforma rolunu oynayacaq. Şuranın yaradılması Almaniyanın Azərbaycanın iqtisadi potensialına, investisiya imkanlarına və regional bağlantı roluna artan marağının göstəricisidir. Biznes Şurasının əsas məqsədləri dayanıqlı, innovativ və gələcəyə yönəlmiş iqtisadi əlaqələrin təşviq edilməsi, birgə təşəbbüslərin və investisiya imkanlarının müəyyənləşdirilməsinin, inkişaf etdirilməsinin və zərurət olduqda həyata keçirilməsinin dəstəklənməsi, işçi formatları da daxil olmaqla, ekspertiza və ayrı-ayrı sektorlar üzrə bilik və təcrübə mübadiləsinin təmin edilməsi, hər iki ölkədə biznes və investisiya mühitinin yaxşılaşdırılması məqsədilə tövsiyələrin hazırlanmasıdır.

Vurğulanmalıdır ki, indiyədək Almaniyadan Azərbaycana yönəldilmiş birbaşa investisiyaların ümumi həcmi 937,5 milyon ABŞ dolları təşkil edib. Bu vəsaitin 53,4 milyon dolları neft-qaz, 884,1 milyon dolları isə qeyri-neft-qaz sektorunun payına düşür. Eyni dövrdə Azərbaycandan Almaniyaya yönəldilmiş birbaşa investisiyaların həcmi isə 667,5 milyon ABŞ dolları olub. Cari ilin yanvar-iyun aylarında Azərbaycan və Almaniya arasında ticarət dövriyyəsi təxminən 573 milyon ABŞ dolları olub. Yarım ildə Azərbaycandan Almaniyaya 234,77 milyon dollarlıq məhsul ixrac olunub, Almaniyadan ölkəmizə isə 338,11 milyon dollarlıq məhsul idxal edilib. Ötən il iki ölkə arasında ticarət mübadiləsinin həcmi 1 milyard 376 milyon dollardan çox olub.

**Biznes dairələri arasında əməkdaşlıq güclənəcək**

Azərbaycan və Almaniya şirkətləri arasında əməkdaşlıq perspektivləri yüksəkdir. Bu gün ölkəmizdə fəaliyyət göstərən Almaniya şirkətlərinin sayı artıq 200-dən çoxdur. Qarşılıqlı investisiya məsələlərinin müzakirəsinin isə gündəmdə olması bu statistikanın artacağını deməyə əsas verir. Azərbaycanın investisiya mühiti, regional bağlantılar və nəqliyyat-logistika potensialı tərəflər arasında yaşıl enerji, sənaye və texnologiya transferi üzrə əməkdaşlıq üçün yeni imkanlar yaradır. Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri çərçivəsində Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması haqqında Birgə Bəyannamənin imzalanması da bu prosesin ən mühüm nəticələrindən biridir. Yeni təsisat iki ölkənin biznes dairələri arasında əməkdaşlığı gücləndirməklə yanaşı, həm də iqtisadi münasibətlərin daha sistemli və institusional əsaslarla inkişafına xidmət edəcək.

Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması iki ölkə arasında iqtisadi dialoqun institusional çərçivəyə salınması kimi xüsusi əhəmiyyət daşıyır. Yeni platforma biznes nümayəndələrinin mütəmadi görüşlərini, birgə layihələrin müzakirəsini, investisiya təşəbbüslərinin hazırlanmasını və sahibkarların qarşılaşdıqları məsələlərin operativ həllini təmin edəcək. Beləliklə, iqtisadi əməkdaşlıq təsadüfi biznes əlaqələrindən çıxaraq davamlı və uzunmüddətli mexanizmə çevriləcək.

Qeyd edildiyi kimi, son illərdə Azərbaycan regionun mühüm nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib. Orta Dəhlizin inkişafı, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat marşrutlarında ölkənin rolu, həmçinin Xəzər hövzəsində enerji təhlükəsizliyinə verdiyi töhfə Avropa dövlətlərinin diqqətini daha da artırıb.

Bununla yanaşı, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatlar, sənaye parklarının yaradılması, azad iqtisadi zonalar, rəqəmsal iqtisadiyyatın inkişafı və "yaşıl enerji" layihələri Almaniya kimi yüksək texnologiyalara malik ölkənin şirkətləri üçün yeni əməkdaşlıq imkanları yaradır.

**Fərqli sahələr üzrə əməkdaşlıq perspektivləri**

Biznes Şurasının fəaliyyəti nəticəsində alman şirkətlərinin Azərbaycanda sənaye, kənd təsərrüfatı, logistika, nəqliyyat, bərpa olunan enerji, su təsərrüfatı və rəqəmsal transformasiya istiqamətlərində investisiya fəallığının artacağı da gözlənilir. Eyni zamanda, Azərbaycan şirkətləri də Almaniya bazarına çıxış imkanlarını genişləndirə biləcəklər. Şuranın əsas üstünlüklərindən biri dövlət qurumları ilə biznes dairələri arasında effektiv əlaqələndirmə mexanizmi yaratmasıdır. Bu platforma vasitəsilə sahibkarlar qarşılaşdıqları hüquqi, inzibati və investisiya mühitinə dair məsələləri birbaşa müzakirə etmək imkanı əldə edəcəklər.

Azərbaycanın bərpaolunan enerji sahəsində həyata keçirdiyi irimiqyaslı layihələr Almaniya ilə əməkdaşlıq üçün xüsusi perspektivlər açır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji zonası" elan olunması, külək və günəş enerjisi layihələrinin genişləndirilməsi alman texnologiyalarının tətbiqi baxımından mühüm imkanlar yaradır. Eyni zamanda, rəqəmsal iqtisadiyyat, sənaye 4.0, enerji səmərəliliyi, ağıllı şəhərlər və innovativ istehsal texnologiyaları sahələrində də birgə layihələrin reallaşdırılması üçün əlverişli zəmin formalaşır.

Bir sözlə, Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması iki ölkə arasında iqtisadi münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Şura dayanıqlı, innovativ və gələcəyə yönəlmiş iqtisadi əlaqələrin təşviqi, yeni investisiya layihələrinin formalaşdırılması, texnologiya və bilik mübadiləsinin genişləndirilməsi, biznes mühitinin təkmilləşdirilməsi istiqamətində mühüm rol oynayacaq.

Bu təşəbbüs həm Almaniyanın Azərbaycanın artan iqtisadi və geostrateji əhəmiyyətinə verdiyi qiymətin göstəricisi, həm də Azərbaycanın beynəlxalq iqtisadi əməkdaşlıq platformalarında mövqeyinin daha da möhkəmləndiyini nümayiş etdirən mühüm addım hesab olunur. Orta və uzunmüddətli perspektivdə Biznes Şurasının fəaliyyəti qarşılıqlı investisiyaların həcminin artmasına, qeyri-neft sektorunun inkişafına və iki ölkə arasında strateji iqtisadi tərəfdaşlığın daha da dərinləşməsinə əhəmiyyətli töhfə verəcək.

***P.İSMAYILOV***

# Prioritet hədəf: Əhalinin məşğulluğunun artırılması

Azərbaycan dünyada nümunə kimi qəbul edilən davamlı inkişafını uzunmüddətli strategiyaların müəyyənləşdirilməsi və bu strategiyalar üzrə konkret tədbirlərin real vaxt rejimində həyata keçirilməsi sayəsində təmin edir. Son 23 ildə Prezident İlham Əliyevin qətiyyətli siaysi iradəsi əsasında ayrı-ayrı istiqamətlər üzrə çoxsaylı proqramlar qəbul edilərək uğurla icra olunub. İslahatlar kursunun davamı olaraq Prezident İlham Əliyev 20 iyul 2026-cı il tarixində "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Tədbirlər Planı ölkəmiz üçün çox böyük sosial-iqtisadi önəm daşıyır.

Sərəncama əsasən Tədbirlər Planının icrasını təmin etmək məqsədilə müvafiq qurumlar koordinasiyalı şəkildə fəaliyyət göstərəcəklər. O cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə sənəddə nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirmək tapşırılıb. Nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Prezidentinə məlumat veriləcək. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək. Nazirlər Kabineti isə bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.



## 6 prioritet istiqamət üzrə görüləcək işlər

Tədbirlər Planı kifayət qədər geniş əhatə dairəsinə malikdir. Sənədə əsasən 6 prioritet istiqamətdə tədbirlərin görülməsi təmin ediləcək. Bunlar aşağıdakılardır.

- Məşğulluqyönümlü iqtisadi inkişaf siyasətinin həyata keçirilməsi, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi,
- Əmək bazarının tənzimlənməsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi,
- İşçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsi,
- Aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların əmək bazarına inteqrasiyasının gücləndirilməsi,
- Sosial dialoqun inkişaf etdirilməsi və qeyri-formal əmək münasibətlərinin qarşısının alınması,
- Əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsi kimi istiqamətlər daxildir.

Sənəd regionlarda gənclərin startap layihələrinin dəstəklənməsi, özünüməşğulluq proqramına cəlb olunan şəxslərin biznes subyektləri kimi formalaşdırılmasını təşviq edən yeni mexanizmlərin yaradılmasını nəzərdə tutur. Tədbirlər Planına əsasən, 2026-2030-cu illərdə dayanıqlı iş yerlərinin yaradılması məqsədilə KOB subyektləri üçün keyfiyyətli məsləhət xidmətlərinə çıxış imkanları, aqrar sektorda əmək məhsuldarlığının artırılması məqsədilə müasir texnologiyaların tətbiqi genişləndiriləcək. Xüsusilə kənd yerlərində turizm infrastrukturunun inkişafı sahəsində tədbirlər həyata keçiriləcək. "İşəgötürənlər və sahibkarlar birlikləri haqqında" Qanun layihəsi hazırlanacaq, əmək miqrasiyası üzrə qanunvericilik təkmilləşdiriləcək, iş yerində öyrənmə (usta yanında şagirdlik və təcrübəkeçmə) üzrə yeni mexanizmin yaradılması üçün normativ hüquqi baza yaradılacaq.

Həmçinin qeyd edilən dövrdə:

- məşğulluq sahəsində göstərilən xidmətlərin elektronlaşdırılmasının genişləndirilməsi,
- məşğulluğunun təmin edilməsi prosesində süni intellektə əsaslanan xidmətlərin yaradılması,
- peşə hazırlığı mərkəzləri şəbəkəsinin genişləndirilməsi,
- beynəlxalq təcrübə əsasında çevik iş vaxtı rejimi modellərinin yaradılması,
- "Peşələr üzrə elektron atlas" informasiya sisteminin yaradılması,
- peşə və kvalifikasiya standartlarının davamlı olaraq yenilənməsi,
- "Yaşıl iqtisadiyyat"a keçid kontekstində müasir bacarıqların əldə olunması məqsədilə peşə hazırlığı proqramlarının təkmilləşdirilməsi,
- dual peşə təhsili modelinin əhatə dairəsinin genişləndirilməsi
- sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün aktiv məşğulluq proqramlarının sayının artırılması,
- regionlarda işsiz və işaxtaran şəxslər (xüsusilə gənclər) üçün onlayn və hibrid təlimlərin təşkili,
- "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatından istifadə etməklə əmək münasibətlərinin leqallaşdırılması istiqamətində tədbirlərin görülməsi,
- dövlət uşaq müəssisələrindən məzun olmuş əməkqabiliyyətli şəxslərin məşğulluğunun dəstəklənməsi üzrə tədbirlərin həyata keçirilməsi, eləcə də təhsil müəssisələri tərəfindən məzunların əmək bazarına adaptasiyası vəziyyətinin öyrənilməsi üzrə dövri müayinələr aparılması və s. tədbirlərin görülməsi nəzərdə tutulur.

## Regionlarda investisiya fəallığının artırılması

Sənəddə ilk növbədə regionlarda investisiya fəallığının artırılmasını hədəfləyən tədbirlərin reallaşdırılması nəzərdə tutulur. Regional inkişafın təmin edilməsi, paytaxtla bölgələr arasında fərqin azaldılması Azərbaycanın strateji inkişaf kursunun özəyini təşkil edir. Bu da ilk növbədə onunla bağlıdır ki, ölkə əhalisinin təxminən yarısı regionlarda məskunlaşıb. Bu reallıq nəzərə alınmaqla 2004-cü ildən başlayaraq Azərbaycanda ardıcıl olaraq regional inkişaf proqramları qəbul edilib. Həmin proqramların icrası çərçivəsində bölgələrimiz də iqtisadi güc mərkəzlərinə çevrilib, regionlarda iri təsərrüfatlar yaradılıb. Bu proqramların icrası çərçivəsində həmçinin müxtəlif təyinatlı infrastruktur obyektlərinin inşası diqqət mərkəzində saxlanılıb. İnfrastruktur obyektlərinin tikintisi bir qayda olaraq dövlət əsaslı vəsait qoyuluşu hesabına aparılıb. İlk növbədə yeni generasiya güclərinin yaradılması sayəsində ölkənin enerji təhlükəsizliyi tam təmin edilib. Hazırda respublikamız təxminən 10 min meqavata yaxın generasiya gücünə malikdir. Güclü enerji infrastrukturunun yaradılması bütün ölkə üzrə əmək tutumu böyük olan müasir istehsalatların yaradılmasına geniş imkanlar açır.

Regionlarda məşğulluğun təmin edilməsi baxımından yol təsərrüfatının yenilənməsi böyük aktuallıq daşıyır. Yol infrastrukturunun ciddi sosial-iqtisadi önəmi nəzərə alınmaqla respublikamızda hər il təxminən min kilometr uzunluğunda yollar tikilir və yaxud əsaslı şəkildə təmir edilir. O cümlədən yerli əhəmiyyətli yolların yenilənməsi də intensiv şəkildə davam etdirilir ki, bu da bölgələrdə əmək bazarının genişlənməsinə öz müsbət təsirini göstərir.

Su layihələrinin həyata keçirilməsi də regionlarda məşğulluğun artırılması baxımından çox vacibdir. Son 23 ildə ölkəmizdə genişmiqyaslı su layihələrinin icrasının prioritetliyi təmin edilib. Dövlət investisiya qoyuluşu hesabına həyata keçirilən belə layihələrini statistikası kifayət qədər zəngindir. Bəhs olunan dövrdə "Taxtakörpü", "Şəmkirçay", "Tovuzçay", "Göytəpə", Naxçıvanda "Heydər Əliyev", "Vayxır" su anbarlarının, Oğuz-Qəbələ-Bakı su kəmərinin inşası, Samur-Abşeron su kəmərinin yenidən qurulması və əksər şəhər və rayon mərkəzlərinin içməli su və kanalizasiya xidmətləri ilə təchiz edilməsi respublikamızın su təhlükəsizliyini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Yeni layihələrin icrası da gündəmdədir.

İşğaldan azad olunmuş ərazilərdə reallaşdırılan su layihələri də kifayət qədər geniş əhatə dairəsinə malikdir. Bu ərazilər su ehtiyatları ilə zəngin bir diyardır. Respublikamızın su mənbələrinin təqribən dörddəbir hissəsi məhz üç onillik ərzində Ermənistanın nəzarətində qalmış regionda formalaşır. İndi həmin torpaqlar azaddır. Qalib Azərbaycan İkinci Qarabağ müharibəsi başa çatdıqdan dərhal sonra vaxt itirmədən qeyd olunan ərazilərin su ehtiyatlarından səmərəli şəkildə istifadə edilməsini hədəfləyən layihələrin icrasına start verib. Bu ərazilərdə ötən beş il ərzində "Sərsəng", "Suqovuşan", "Xaçınçay", "Zabuxçay" su anbarları yenidən qurulub. Bu istiqamətdə işlər gələcəkdə də davam etdiriləcək. O cümlədən "Həkəriçay" və "Bərgüşadçay" su anbarlarının tikintisi də nəzərdə tutulur.

## Aqrar sektorda əmək məhsuldarlığının artırılması

Dövlət başçısının təsdiqlədiyi Tədbirlər Planında aqrar sektorda əmək məhsuldarlığının artırılması məqsədilə müasir texnologiyaların (ağıllı texnologiyalar, müasir suvarma sistemləri, intensiv bağçılıq, intensiv ferma modelləri və s.) tətbiqinin genişləndirilməsi nəzərdə tutulur. Hazırda geniş potensiala malik kənd təsərrüfatının intensiv yollarla inkişaf etdirilməsi Azərbaycanın inkişaf gündəliyində xüsusi yer tutur. Bir qədər bundan əvvəl təsdiqlənən "Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" ölkədə dayanıqlı və yüksək dəyər yaradan aqrar sektorun formalaşdırılmasını nəzərdə tutur. Dövlət Proqramının fəlsəfəsinə əsasən məqsəd yalnız əkin sahələrinin çuluq, tərəvəzçilik, meyvəçilik, Laçında heyvandarlıq, taxılçılıq, bağçılıq, tərəvəzçilik, Qubadlıda heyvandarlıq, taxılçılıq, arıçılıq, baramaçılıq, üzümçülük, Füzulidə taxılçılıq, qoyunçuluq, bitkiçilik, Xocavənddə heyvandarlıq, üzümçülük, quşçuluq, taxılçılıq, bostançılıq, tərəvəzçilik, Şuşa rayonunda heyvandarlıq, meyvəçilik, quşçuluq, Zəngilanda heyvandarlıq, tütünçülük, taxılçılıq, üzümçülük, arıçılıq, baramaçılıq sahələrini dirçəltmək və inkişaf etdirmək mümkündür. Bu-

**Dövlət başçısının təsdiqlədiyi Tədbirlər Planında aqrar sektorda əmək məhsuldarlığının artırılması məqsədilə müasir texnologiyaların (ağıllı texnologiyalar, müasir suvarma sistemləri, intensiv bağçılıq, intensiv ferma modelləri və s.) tətbiqinin genişləndirilməsi nəzərdə tutulur. Hazırda geniş potensiala malik kənd təsərrüfatının intensiv yollarla inkişaf etdirilməsi Azərbaycanın inkişaf gündəliyində xüsusi yer tutur. Bir qədər bundan əvvəl təsdiqlənən "Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" ölkədə dayanıqlı və yüksək dəyər yaradan aqrar sektorun formalaşdırılmasını nəzərdə tutur.**

genişləndirilməsi deyil, mövcud torpaq ehtiyatlarından daha səmərəli istifadə etməklə hər hektardan daha çox və daha keyfiyyətli məhsul əldə edilməsidir. Bütövlükdə proqram 5 məqsədi, 5 prioritet istiqaməti, 16 fəaliyyət istiqamətini, 86 tədbiri və 23 hədəf indikatorunu əhatə edir. Son nəticədə qarşıya qoyulan məqsədlərə çatılması ölkədə regional inkişafın təmin edilməsinə, əhalinin məşğulluğunun artırılmasına, yeni ixrac imkanları yaradılmasına, ən əsası isə indiki qlobal çağırışlar fonunda aktuallığı heç vaxt olmadığı qədər artan və milli təhlükəsizliyin mühüm tərkib hissəsinə çevrilən özünütəminat səviyyəsinin yüksəldilməsinə mühüm töhfə olacaq.

Ölkədə kənd təsərrüfatının inkişaf perspektivlərindən bəhs edərkən Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərin böyük aqrar potensialının olduğu reallığını mütləq yaddada nəzərə almaq lazımdır. Tarixən də burada kənd təsərrüfatında ayrı-ayrı istiqamətlər üzrə yaxşı ənənələr formalaşıb, demək olar ki, hər rayon bu və ya digər istiqamət üzrə ixtisaslaşıb. Mütəxəssislərin də qənaəti belədir ki, ənənələri dirçəltməklə Cəbrayılda heyvandarlıq, üzümçülük və baramaçılıq, Xocalıda kartofçuluq, üzümçülük və heyvandarlıq, Ağdamda heyvandarlıq, pambıqçılıq, taxılçılıq, Kəlbəcərdə heyvandarlıq, kartofçuluna da həm ölkənin ərzaq təhlükəsizliyinə güclü dəstək veriləcək, həm də Ümumi Daxili Məhsul (ÜDM) istehsalının artması üçün yeni mənbə formalaşmış olacaq.

Digər bir mühüm məqam ondan ibarədir ki, azad ərazilərin aqrar potensialının hərəkətə gətirilməsi Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdış proqramının həyata keçirilməsinə də güclü təkan verəcək. Bu gün azad ərazilərdə 80 mindən çox əhali yaşayır. Buradan da doğma yurd yerlərinə məmnuniyyətlə köç edən insanların məşğulluğu məsələsinin aktuallığı gündəmə gəlir. Bəhs olunan ərazilərin aqrar potensialının hərəkətə gətirilməsi isə yeni iş yerlərinin açılması deməkdir. İşğaldan azad olunmuş ərazilərin aqrar imkanlarından geniş istifadə olunması üçün bütün zəruri şərtlər var. Xüsusilə də bu yerlərin münbit torpağı və su ehtiyatlarının zənginliyi kənd təsərrüfatında yüksək məhsuldarlıq əldə edilməsinə şərait yaradır.

Hazırda işğaldan azad olunmuş ərazilərdə aqroparkların yaradılması da geniş vüsət alıb. Bütövlükdə aqroparklar müasir aqrar istehsalın təşkili, yeni texnologiyaların tətbiqi, yüksək məhsuldarlığın əldə olunması və yurd yerlərinə köç edən soydaşlarımızın məşğulluğunun təmin edilməsi baxımından müstəsna önəm daşıyır.

## Özünüməşğulluq proqramının genişləndirilməsi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi (DMA) bu ilin birinci yarısında 200,7 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib. Onlardan 82 min şəxs münasib işlərlə təmin olunub. Ölkəmizdə həyata keçirilən aktiv məşğulluq tədbirlərindən biri də özünüməşğulluq proqramıdır. Tədbirlər Planında özünüməşğulluq proqramının əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur. Özünüməşğulluq - şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsidir. Özünüməşğulluq proqramı Azərbaycan Prezidentinin 7 aprel 2016-cı il tarixli 1941 nömrəli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən həyata keçirilir. Proqram çərçivəsində DMA tərəfindən kiçik biznesə başlamaq üçün istəyi, minimum potensialı, bacarıqları, təsəvvürü olan əmək qabiliyyətli, həmçinin məhdud əmək qabiliyyətli olan işsiz və işaxtaran şəxslərin dövlətin dəstəyi ilə öz ailə təsərrüfatlarını, kiçik bizneslərini yaratmalarına dəstək göstərilir. Qeyd edilən kateqoriyalara aid vətəndaşlara proqram çərçivəsində dövlət vəsaiti hesabına birbaşa mal və materiallar formasında aktivlər verilir. Proqram kənd təsərrüfatı, istehsal və xidmət sahələrini əhatə edir. Proqramın icrası zamanı şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, ünvanlı dövlət sosial yardımı alan şəxslər, əlilliyi olan şəxslər və 18 yaşadək əlilliyi olan şəxslər, 1 ildən artıq işsiz kimi qeydiyyatda olan şəxslər, pensiya yaşına iki ildən az qalmış şəxslər, cəzaçəkmə müəssisəsindən azad edilmiş işsiz şəxslər üstün hüquqa malikdirlər. Proqrama müraciət etmiş vətəndaşların növbəliliyi qeyd olunan kateqoriyalar üzrə meyarlar əsasında müəyyən edilir. Vətəndaşlar öz növbələri barədə məlumatı məşğulluq filiallarından və ya Agentliyin saytında yaradılan növbəlilik reyestrindən əldə edə bilirlər.

Proqramın icrasına başlanıldığı 2017-ci ildə 1172 nəfər özünüməşğulluğa cəlb olunub. Sonrakı illərdə bu rəqəm mütəmadi qaydada artırılıb. Həmçinin təhlillər əsasında potensial biznes ideyalar üzrə aktual və iqtisadi cəhətdən dayanıqlı 13 yeni zərf yaradılıb. Mühüm sosial-iqtisadi əhəmiyyətə malik olan özünüməşğulluq proqramının icrası cari ildə də uğurla davam edir. Dövlət Məşğulluq Agentliyi tərəfindən 2026-cı ilin ilk beş ayı ərzində 950-dək şəxsə özünüməşğulluq proqramı çərçivəsində aktivlər təqdim olunub. Mal və materiallar formasında verilmiş aktivlər hesabına onlar kənd təsərrüfatı, istehsal və xidmət sahələri üzrə kiçik təsərrüfatlarını qurublar.

Proqrama cəlb olunanlar üçün ilk mərhələdə təlimlər təşkil olunaraq, onlara kiçik biznesin təşkili və idarə edilməsi üzrə bilik və bacarıqlar öyrədilir. Təlimləri bitirənlər biznes planlarına uyğun aktivlərlə təmin edilirlər. Neqativ halların qarşısının alınması, şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması və ədalət prinsipinin qorunub saxlanılması məqsədilə "Növbəlilik reyestri" hazırlanaraq istifadəyə verilib: "Vətəndaş məmnunluğunun artırılması, müraciət etmiş hər bir vətəndaşa real vaxt rejimində öz növbəsini izləmək imkanının yaradılması məqsədilə özünüməşğulluq növbəlilik reyestri ictimaiyyətə açıq şəkildə Agentliyin rəsmi internet saytında yerləşdirilib. Gələcək planlarda kənd təsərrüfatı, istehsal və xidmət sahələri üzrə zərflərin tərkibinin, idarəetmə və koordinasiya mexanizminin təkmilləşdirilməsi, göstərilən xidmət keyfiyyətinin artırılması, iqtisadiyyatın inkişafının və vətəndaşların sosial rifahının yüksəldilməsi əsas prioritet istiqamətlər kimi saxlanılacaq.

*Mübariz ABDULLAYEV*

# YAP Sədrinin müavini Tahir Budaqov Çin Kommunist Partiyasının nümayəndə heyəti ilə görüşüb















İyulun 23-də Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizə səfərin yekunları ilə bağlı Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamenti direktorunun müavini Kanq Şuayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Tahir Budaqov tarixi ənənələrə, qarşılıqlı etimada və möhkəm dostluğa əsaslanan Azərbaycan-Çin münasibətlərinin müasir beynəlxalq münasibətlər sisteminin mühüm reallığı kimi nümunəvi xarakter daşıdığını və geniş perspektivlərə malik olduğunu bildirib.

O, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin dövlətlərarası münasibətlərin inkişafını daim diqqət mərkəzində saxladıqlarını vurğulayıb.

YAP Sədrinin müavini qeyd edib ki, Prezident İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"dan irəli gələrək iqtisadi-ticari, nəqliyyat-logistika, turizm, yaşıl enerji, rəqəmsal texnologiyalar və digər sahələrdə çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi qarşılıqlı maraqların təmini və münasibətlərin gələcək inkişafı baxımından böyük əhəmiyyətə malikdir.

Azərbaycanın Cənubi Qafqazda həyata keçirdiyi sülh quruculuğundan bəhs edən Tahir Budaqov hər iki ölkənin mühüm qlobal təşəbbüslərlə çıxış etdiyini vurğulayaraq "Bir kəmər, bir yol" layihəsinin və Zəngəzur dəhlizinin geostrateji əhəmiyyətini diqqətə çatdırıb.

O, beynəlxalq hüququn təməlində dayanan ərazi bütövlüyü və suverenlik prinsiplərini əsas götürən Azərbaycanın Vahid Çin siyasətinə qətiyyətli dəstəyini nəzərə çatdırıb.

YAP Sədrinin müavini nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin inkişafı baxımından xüsusi önəm daşıdığını qeyd edib. O, 2024-cü ilin noyabr ayında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin indiyədək müvəffəqiyyətlə yerinə yetirildiyini vurğulayıb.

Tahir Budaqov gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunaraq bu sahədə səmərəli əməkdaşlığın davam etdirilməsinin vacibliyini bildirib. O, partiya diplomatiyasının bundan sonra da ortaq hədəflərin gerçəkləşdirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq Əlaqələr Şöbəsinin İnformatika və Tədqiqatlar Departamenti direktorunun müavini Kanq Şuay rəhbərlik etdiyi nümayəndə heyəti adından səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edərək səfərin onlarda dərin təəssürat yaratdığını söyləyib.

O, iki ölkənin liderləri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu qeyd edib.

Kanq Şuay Çin Xalq Respublikasının dost və tərəfdaş Azərbaycanın ədalətli mövqeyini, o cümlədən ərazi bütövlüyünü və suverenliyini birmənalı şəkildə dəstəklədiyini vurğulayıb.

Hakim partiyalar arasında işbirliyinin əhəmiyyətindən bəhs edən Kanq Şuay ÇKP nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində keçirilən məhsuldar görüşlərin ölkələr və partiyalar arasında əməkdaşlığın dərinləşdirilməsinə və tərəfdaşlıq münasibətlərinin inkişafına təkan verəcəyini bildirib.

Daha sonra nümayəndə heyətinin üzvləri Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin mühüm tərkib hissəsi olan YAP-ÇKP əməkdaşlığının hazırkı durumu və gələcək hədəflərlə bağlı fikirlərini bildiriblər.

Görüşdə yüksəksəviyyəli siyasi dialoq şəraitində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin davam etdirilməsinin və ümumi maraq doğuran məsələlər üzrə təmasların daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.

Qeyd edək ki, nümayəndə heyətinin İçərişəhərə, Dənizkənarı Milli Parka, "Sea Breeze" istirahət mərkəzinə, Mərkəzi Nəbatət Bağına, Bakı Gənclər Mərkəzinə, "Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq Qoruğuna, Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinə, Azərbaycan Milli Xalça Muzeyinə, Dövlət Bayrağı Muzeyinə və Heydər Əliyev Mərkəzinə ziyarətləri də təşkil olunub. ÇKP nümayəndələri, həmçinin Azərbaycan Dövlət Akademik Musiqili Teatrının "Operetta inciləri" konsert proqramını izləyiblər və Yeni Azərbaycan Partiyasının nümayəndələri ilə birlikdə ağacəkmə aksiyasında iştirak ediblər.



# Azərbaycan “PowerChina Resources Ltd.” ilə günəş və külək enerjisi layihələrinin inkişafını müzakirə edib

Energetika naziri Pərviz Şahbazov “PowerChina Resources Ltd.” şirkətinin prezidenti Yanq Tianfu ilə görüşüb.

Nazirlikdən bildirilib ki, görüşdə Azərbaycan ilə “PowerChina” şirkətlər qrupu arasında bərpaolunan enerji sahəsində uğurla inkişaf edən əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Şirkətin Azərbaycanda həyata keçirilən yaşıl enerji layihələrində fəal iştirak etdiyi qeyd edilib. Bildirilib ki, “PowerChina”nın törəmə şirkəti “Huadong Engineering Co., Ltd.” 240 meqavat gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyası layihəsinin baş podratçısı olub, hazırda isə “Masdar”ın 200 meqavat gücündə “Abşeron” Külək Elektrik Stansiyası layihəsinin baş podratçı qismində fəaliyyət göstərir.



Görüşdə “PowerChina Resources Ltd.” şirkəti ilə 160 meqavat gücündə Günəş elektrik stansiyası layihəsi, eləcə də Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisi layihəsi ilə bağlı fikir mübadiləsi aparılıb. 160 meqavat gücündə Günəş elektrik stansiyası layihəsi üzrə görülmüş işlər nəzərdən keçirilib. “PowerChina Resources Ltd.” tərəfindən həyata keçirilən layihələrin Energetika Nazirliyinin prioritet layihələri sırasında yer aldığı vurğulanıb. Söhbət zamanı bərpaolunan enerji mənbələrinin elektrik şəbəkəsinə təhlükəsiz inteqrasiyası, elektrik enerjisinin ötürmə infrastrukturunun inkişafı və enerji saxlama sistemlərinin (BESS) tətbiqi perspektivlərinə toxunulub. Bildirilib ki, yeni generasiya güclərinin sistemə inteqrasiyası elektrik şəbəkəsinin inkişafı üzrə aparılan texniki-iqtisadi əsaslandırmanın nəticələri nəzərə alınmaqla həyata keçiriləcək. Bu çərçivədə layihələrin icrası zamanı enerji sisteminin dayanıqlılığının təmin edilməsi əsas prioritetlərdən biri kimi qiymətləndirilib.

Yekunda layihələrin uğurla həyata keçirilməsi istiqamətində əməkdaşlığın davam etdirilməsi və texniki səviyyədə məsləhətləşmələrin intensivləşdirilməsi barədə razılıq əldə olunub.

# Bakı Təşəbbüs Qrupu fəaliyyətini genişləndirir

## Burkina-Faso XİN-in rəsmi səhifəsində BTQ ilə imzalanmış memorandumla bağlı paylaşım edilib





Burkina-Faso Xarici İşlər Nazirliyi öz rəsmi “Facebook” səhifəsində Bakı Təşəbbüs Qrupu (BTQ) ilə imzalanmış Anlaşma Memorandumu barədə məlumat yayıb. Bakı Təşəbbüs Qrupundan verilən məlumata görə, sənəd 2026-cı il iyulun 11-də Bakı şəhərində Burkina-Faso Xarici İşlər Nazirliyinin Qabaqcıl Beynəlxalq Araşdırmalar İnstitutu (INHEI) və BTQ-nin icraçı direktoru Abbas Abbasov tərəfindən imzalanaraq beynəlxalq hüquq normalarına uyğun şəkildə qüvvəyə minib.

Memorandum tərəflər arasında elmi-tədqiqat, təlim, akademik mübadilə və strateji dialoq sahələrində uzunmüddətli əməkdaşlığın hüquqi çərçivəsini müəyyən edir. Sənəd çərçivəsində ekspert, tədqiqatçı və s. mübadiləsinin təşkili, birgə tədqiqat layihələrinin həyata keçirilməsi, INHEI-nin tələbələri, diplomatlar və akademik heyəti üçün seminar, təlim proqramları, konfranslar və ekspert müzakirələrinin keçirilməsi nəzərdə tutulur. Bu əməkdaşlıq INHEI-nin həyəti üçün aparıcı beynəlxalq məktəblər və tədqiqat mərkəzləri ilə əlaqələrin genişləndirilməsinə və peşəkar səriştənin artırılmasına yeni imkanlar açacaq. INHEI-nin baş direktoru Filip Sandvidi bildirib ki, BTQ ilə qurulan əməkdaşlıq Burkina-Fasonun ali rəhbərliyi tərəfindən irəli sürülən beynəlxalq tərəfdaşlıqların şaxələndirilməsi siyasətinə tam uyğundur və ölkənin diplomatik fəaliyyətinin beynəlxalq arenada gücləndirilməsinə töhfə verəcək.

Qeyd edək ki, bu əməkdaşlıq BTQ-nin fəaliyyət coğrafiyasının Afrika istiqamətinə yayılmasında mühüm addım kimi qiymətləndirilir. BTQ əvvəllər müxtəlif ölkələrin siyasi partiyaları və siyasi hərəkatları ilə belə sənədlər imzalayırdısa, artıq bir ölkənin dövlət orqanı ilə əməkdaşlığa başlayır. Sənəd BTQ ilə Qlobal Cənub ölkələri arasında elmi və praktik əlaqələrin gücləndirilməsinə, Afrika ölkələrinin aparıcı tədqiqat institutları və vətəndaş cəmiyyəti təşkilatları ilə nəticəyönümlü əməkdaşlığın inkişafına zəmin yaradacaq. BTQ-nin rəhbərliyi ilə yaradılmış Qlobal Cənub Gənclər Platforması bu istiqamətdə fəaliyyətin tərkib hissəsidir.

Əməkdaşlıq çərçivəsində müstəmləkəçiliyin yaratdığı problemlər, neokolonial idarəetmə, təbii resursların istismarı, iqtisadi asılılıq mexanizmləri və reparasiya məsələlərinə dair birgə analitik hesabatlar və siyasət sənədləri hazırlanacaq, beynəlxalq təşkilatlar vasitəsilə geniş auditoriyaya çatdırılacaq. Memorandum, həmçinin Afrika ölkələrində keçirilən tədbirlərdə BTQ ekspertlərinin iştirakını, gənc tədqiqatçılar üçün isə mübadilə və təlim proqramlarının həyata keçirilməsini nəzərdə tutur.

Xatırladaq ki, BTQ fəaliyyət göstərdiyi 3 il ərzində dünyanın siyasi gündəmində demək olar ki, unudulmuş kolonializm və neokolonializm problemlərini yenidən gündəmə gətirib, dekolonizasiya prosesinin əsas hərəkətverici platformasına çevrilib. Bu xüsusda müstəqillik uğrunda legitim mübarizə aparan tərəflərə dəstək verilib, kolonizə edilmiş xalqların azadlığı istiqamətində ardıcıl və nəticəyönümlü fəaliyyət göstərilib. Nəticədə müstəmləkəçilikdən əziyyət çəkən xalqların səsi qlobal gündəmə daşınıb, nüfuzlu beynəlxalq platformalarda müzakirə edilib. BTQ-nin ardıcıl və məqsədyönlü fəaliyyəti bu məsələlərin müvafiq mərkəzi hökumətlər səviyyəsində də diqqət mərkəzinə gətirilməsinə töhfə verib. Bu baxımdan Fransada Korsikanın muxtariyyət statusu ətrafında müzakirələrin aktivləşməsi, Yeni Kaledoniyanın gələcək statusu ilə bağlı proseslərin yeni fazaya daxil olması, kolonial idarəçilikdən miras qalmış və “köləlik qanunu” kimi xarakterizə edilən hüquqi mexanizmlərin ləğv edilməsi, keçmiş müstəmləkələrdən oğurlanmış mədəni irsin geri qaytarılması hallarının çoxalması, habelə digər dənizaşırı ərazilərin hüquqi-siyasi vəziyyətinə dair müzakirələrin yenidən gündəmə gəlməsi mühüm irəliləyişlər kimi qeyd oluna bilər.

Təsadüfi deyil ki, Azərbaycan dünyada kolonializmə qarşı mübarizənin mərkəzi, baş qərargahı kimi tanınır və müstəmləkəçilikdən əziyyət çəkən ərazilər ölkəmizə ümid yeri kimi baxır. Fəaliyyət göstərdiyi üç il ərzində BTQ tərəfindən 40-dan çox beynəlxalq konfrans təşkil edilib, bunlardan 10-u BMT-nin müxtəlif qərargahlarında keçirilib. Eyni zamanda, 50-dən çox nəşr hazırlanıb, 10 əməkdaşlıq memorandumu imzalanıb. Bu dövr ərzində BTQ 25-dən çox ölkə və Dənizaşırı ərazi ilə sıx əməkdaşlıq əlaqələri qurulub.

Ən böyük uğurlar sırasında paytaxtımızda Beynəlxalq Dekolonizasiya Cəbhəsinin - FID (fransızca: Front international de decolonisation) təsis edilməsini göstərmək olar. Beynəlxalq Dekolonizasiya Cəbhəsinin təsis qurultayında Fransa və Niderland müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib regionu, Antil adaları qrupu, Boneyra və Sen-Martindən olan 17-dən çox siyasi partiya və müstəqillik hərəkatının nümayəndələri iştirak ediblər. Vahid cəbhənin yaradılması kolonizə edilmiş xalqların səylərinin birləşdirilməsi, həmrəyliyin gücləndirilməsi və birgə mübarizə aparması istiqamətində mühüm addımlardan biri kimi yadda qalıb.

Fəaliyyətində dekolonizasiya ilə yanaşı insan hüquqlarının müxtəlif aspektlərinə xüsusi önəm verən BTQ 2026-cı il iyunun 24-də ABŞ-nin paytaxtı Vaşinqton şəhərində Konqres binasında Qayıdış Hüququ mövzusunu müzakirəyə çıxararaq azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasətinin beynəlxalq gündəmə daşınmasına start verib.

Təşkilat beynəlxalq qurumlar, akademik dairələr və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığını davamlı şəkildə genişləndirməkdədir. BTQ-nin təşəbbüsü ilə müxtəlif regionlardan olan yerli xalqların nümayəndələri, milli azadlıq hərəkatları, parlament üzvləri, elm xadimləri, beynəlxalq ekspertlər, hüquq müdafiəçiləri və vətəndaş cəmiyyəti institutları bir araya gəlirlər.

*N.BAYRAMLI*

# Bakıda AQEM-in sammiti keçiriləcək

## Azərbaycan təşkilata sədrliyi çərçivəsində fəal siyasət həyata keçirir




Azərbaycan beynəlxalq platformalarda fəal iştirak edir. Ölkəmizin xarici siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlıq mühüm yer tutur. Bu baxımdan, Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəsi (AQEM) çərçivəsində fəaliyyəti xüsusi vurğulanmalıdır. Ölkəmiz hazırda bu təşkilata sədrlik edir.

Yeri gəlmişkən, iyulun 22-də Astana şəhərində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Katibliyinin inzibati binasında Azərbaycanın sədrliyi ilə AQEM Yüksək Səviyyəli Şəxslər Komitəsinin növbəti iclası keçirilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, Komitənin iclasında Azərbaycanın “Daha güclü AQEM: rəqəmsallaşma, bağlantılar və Asiyada dayanıqlı inkişaf” mövzusunda AQEM Sədrliyi çərçivəsində üzv dövlətlər arasında etimadın gücləndirilməsi və əməkdaşlığın genişləndirilməsi ilə bağlı aparılmış fəaliyyətlər müzakirə olunub.

Sədrlik tərəfindən AQEM-in beynəlxalq təşkilata transformasiyası gündəliyi üzrə gedən inkişaflar, o cümlədən müvafiq Nizamnamə layihəsi üzrə aparılan danışıqlar çərçivəsində irəliləyişlər barədə məlumat təqdim edilib və üzv dövlətlərin mövqeləri ətrafında fikir mübadiləsi aparılıb. İclasda cari ildə Bakı şəhərində keçiriləcək AQEM Zirvə Görüşünə hazırlıq məsələləri, habelə Azərbaycan Sədrliyi tərəfindən təklif olunan Zirvə Görüşünün mümkün yekun sənəd layihələri üzrə ilkin müzakirələr baş tutub. Bundan əlavə, Komitənin gündəliyinə uyğun olaraq AQEM Katibliyinin tərkibi və strukturunun inkişafı, onun beynəlxalq tərəfdaşlıqlarının genişləndirilməsi ilə bağlı məsələlər, eləcə də Konfransın müxtəlif əməkdaşlıq ölçüləri üzrə prioritet tədbirlərə bağlı konsepsiya sənədləri müzakirə olunub.

Eləcə də, AQEM məkanında qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən onun institusional inkişafı, bu çərçivədə irəli sürülmüş təşəbbüslər və baş tutmuş tədbirlər ətrafında da fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, AQEM-in yaradılması haqqında ilk təşəbbüsü 1992-ci il oktyabrın 5-də BMT Baş Assambleyasının 47-ci sessiyası zamanı Qazaxıstanın keçmiş Prezidenti Nursultan Nazarbayev irəli sürüb. Əsas məqsəd Asiyada sülh və təhlükəsizliyin təmin olunması üzrə effektiv və universal təşkilat təsis etmək olub. AQEM-in fəaliyyətini tənzimləyən əsas sənədlər 1999-cu ildə qəbul edilmiş “AQEM üzv dövlətləri arasında münasibətlərin rəhbər prinsipləri haqqında Bəyannamə” və 2002-ci ildə təsdiqlənmiş “Almatı Aktı”dır. Müşavirənin inzibati orqanı Astana şəhərində yerləşən Katiblikdir. Hazırda təşkilatın 28 üzvü var. Bundan əlavə, 10 ölkə, həmçinin BMT, ATƏT, Beynəlxalq Miqrasiya Təşkilatı, Ərəb Dövlətləri Liqası, Türk Dövlətləri Parlament Assambleyası kimi beynəlxalq təşkilatlar qurumda müşahidəçi statusuna malikdirlər.

Azərbaycan Qazaxıstanın təşəbbüsünü dəstəkləyən ilk dövlətlərdəndir. Ölkəmiz “Təhlükəsiz və səmərəli nəqliyyat dəhlizləri sistemlərinin inkişaf etdirilməsi” sahəsində etimadqurucu tədbirin əlaqələndiricisi funksiyalarını yerinə yetirir. Bu istiqamətdə Azərbaycan 2011-ci il aprelin 20-21-də sözügedən etimad-quruculuğu sahəsində ekspertlərin görüşünə evsahibliyi edib. 10 il sonra isə virtual formatda Azərbaycan tərəfindən “Nəqliyyat və logistika əməliyyatlarında rəqəmsallaşmanın gücləndirilməsi istiqamətində əməkdaşlığın təşviqi” mövzusunda ekspertlərin növbəti görüşü təşkil edilib. Bundan başqa, 2018-ci il aprelin 13-14-də Bakıda “Sülh, təhlükəsizlik və davamlılıq kontekstində beynəlxalq gənclər əməkdaşlığı” mövzusunda AQEM-in Gənclər Şurasının üçüncü konfransı keçirilib.

Onu da qeyd edək ki, AQEM Nazirlər Şurasının 2024-cü il 19 mart tarixli qərarı ilə 2024-2026-cı illər üzrə müşavirəyə sədrlik ölkəmizə keçib. Təşkilata sədrlik çərçivəsində AQEM-in Biznes və Gənclər şuralarına sədrliyin də həmin dövr üçün Azərbaycan tərəfindən həyata keçirilməsi nəzərdə tutulub. Təkcə 2025-ci ildə Azərbaycanda AQEM-in etimad tədbirlərinin həyata keçirilməsi planına 44 tədbir daxil edilib. Bunlardan təxminən 20-si Azərbaycan tərəfindən təklif olunub ki, bu da AQEM-in 5 əsas iş istiqamətini (iqtisadi, ekoloji, insani və hərbi-siyasi ölçülər, yeni çağırışlar və təhdidlər ölçüsü) əhatə edir. AQEM yanında Biznes Şurası İdarə Heyətinin Azərbaycanın sədrliyi ilə keçirilən ilk iclası da həmin tədbirlər sırasındandır. Hazırda biznes-dialoqun gücləndirilməsi, beynəlxalq tərəfdaşlığın təşviqi və sahibkarlığın dəstəklənməsinə yönəlmiş bir sıra təşəbbüslər planlaşdırılır. Bunlar investisiyalar, rəqəmsal transformasiya, ixrac potensialı və KOB-ların davamlığı mövzularında vebinarların təşkili, biznesin inkişafında ən yaxşı təcrübələrin mübadiləsi üçün AQEM-ə üzv dövlətlər ilə müntəzəm işgüzar müzakirələrin aparılması və s. ibarətdir.

Yeri gəlmişkən, hələ ötən il qurumun baş katibi Kayrat Sarıbay ölkəmizin təşkilata rəhbərliyi ilə bağlı bu fikirləri bildirmişdi: “Azərbaycanın sədrliyi Asiyada qarşılıqlı əlaqə, rəqəmsallaşma və davamlı inkişaf vasitəsilə AQEM-in gücləndirilməsinə yönəlib. Bu məqsədlərə nail olmaq üçün ölkə 3 prioritet istiqamətə diqqət yetirəcək. AQEM-in transfotrmasiya və institusional inkişafı, etimad tədbirlərinin həyata keçirilməsi vasitəsilə müəyyən sahələrdə əməkdaşlıq və AQEM ilə digər beynəlxalq təşkilatlar arasında fəaliyyətə yardım etmək. İnanırıq ki, Azərbaycanın fəal və mütərəqqi liderliyi altında AQEM Asiyada etimad və yaradıcı əməkdaşlığın unikal platforması kimi öz statusunu gücləndirməyə nail olacaqdır”.

Onu da vurğulayaq ki, Azərbaycanın AQEM-ə Sədrliyi “Daha güclü AQEM - Asiyada əlaqəlilik, rəqəmsallaşma və dayanıqlı inkişaf” mövzusuna həsr olunub. Ölkəmizin sədrliyi dövründə AQEM-in transformasiyası və institusional inkişafı, etimad-quruculuğu tədbirlərinin icrası vasitəsilə sahəvi əməkdaşlığın gücləndirilməsi və qurumun digər beynəlxalq və regional təşkilatlarla birgə fəaliyyətinin təşviqi xüsusi diqqət mərkəzindədir.

*Nardar BAYRAMLI*

# Yeni “nüvə mübahisəsi” başlayır

## Səudiyyə Ərəbistanı ABŞ ilə birgə nüvə enerjisi texnologiyalarının istifadəsinə dair saziş imzalayıb

ABŞ Prezidenti Donald Tramp Səudiyyə Ərəbistanı ilə nüvə enerjisi texnologiyalarının birgə istifadəsinə dair sazişi təsdiqləyib. “Associated Press” (AP) agentliyi məlumatı iki mənbəyə istinadla bildirib. Məlumata görə, 30 il müddətinə nəzərdə tutulan saziş Amerika şirkətlərinin proqramın həyata keçirilməsində iştirakını da əhatə edir. Razılaşmanın ABŞ və Səudiyyə Ərəbistanının birgə tədqiqatlarından sonra krallıqda uranın zənginləşdirilməsi müəssisəsinin yaradılmasına imkan verəcəyi bildirilir.

Agentliyin mənbələrinin sözlərinə görə, sənəddə nüvə materiallarının hərbi məqsədlərlə istifadəsinin qarşısını almaq üçün Vaşinqtonun əvvəllər vacib saydığı təhlükəsizlik təminatları yer almayıb.

**Səudiyyə Ərəbistanının enerji ehtiyaclarının ödənilməsinə kömək...**

ABŞ Energetika Nazirliyinin açıqladığı məlumata görə, müvafiq uzunmüddətli müqavilə Vaşinqtonda ölkələrin enerji nazirləri Kris Rayt və Əbdüləziz bin Salman Əl Səud tərəfindən imzalanıb. Müqaviləyə əsasən, Amerika şirkətləri Səudiyyə Ərəbistanının nüvə proqramının inkişafında iştirak edə biləcəklər ki, bu da qarşılıqlı fayda vəd edir - belə ki, elektrik stansiyaları üçün yanacaq istehsalından ötrüdür. Lakin eyni texnologiya nüvə silahları yaratmaq üçün də istifadə edilə bilər. Bu səbəbdən ABŞ-ın hər iki partiyadan olan konqresmenləri Səudiyyə Ərəbistanının nüvə proqramı ideyasına qarşı çıxıblar. Dövlət katibi Marko Rubio isə Filippinə səfəri zamanı bildirib ki, “Birləşmiş Ştatlar dünyanın heç bir ölkəsi ilə nüvə yayılma riski yaradan bir müqavilə bağlamayacaq”.

Xatırladaq ki, Tramp administrasiyası müqavilənin təfərrüatlarını açıqlamayıb, lakin çərçivə müqaviləsinə Səudiyyə Ərəbistanında uran zənginləşdirmə qurğusunun tikintisi daxil ola bilər.

Siyasi təhlilçilər müqavilə ilə bağlı bir sıra sualların olduğunu qeyd edirlər. Belə ki, sənəddə monitorinqi və yoxlamaları tənzimləyəcək Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) Əlavə Protokolu yoxdur. Saziş həm də hazırda Yaxın Şərqdə davam edən gərginlik fonunda müzakirə doğurur.

**MAQATE gəlməyəcək...**

CNN mənbələrə istinadən bildirib ki, sazişin əsas parametrləri 2025-ci ilin oktyabrında razılaşdırılıb. İmzalanmanın gecikməsi isə cəlb etmək əvəzinə, ikitərəfli müqavilələr çərçivəsində Səudiyyə Ərəbistanının nüvə fəaliyyətinə özü nəzarət etmək niyyətindədir. Ağ Ev isə bu xəbərlə bağlı şərh verməyib.

**Yaxın perspektivdə...**

Qeyd edək ki, Səudiyyə Ərəbistanı uzun illərdir dinc nüvə enerjisi ilə maraqlanır. Növbəti illərdə krallıq hakimiyyəti 16 reaktora qədər potensiala malik iki reaktorlu nüvə elektrik stansiyası tikmək istəyir. Bu, Ər-Riyad üçün həm Yaxın və Orta Şərqdə nüfuz, həm də artan elektrik enerjisinə ehtiyac, neftə alternativ istək baxımından vacibdir. Lakin ölkə uzun müddətdir ki, əsas oyunçuların, əsasən ABŞ, Rusiya və Çinin təklif etdiyi variantları araşdıraraq podratçılar barədə qərar verə bilmirdi. Nəticədə seçim ABŞ olub. Vurğulanmalıdır ki, bu ilin əvvəlində Donald Tramp təfərrüatlara varmadan Ər-Riyadla yeni bir müqavilənin ABŞ-a fayda verəcək “çoxillik, milyardlarla dollarlıq nüvə enerjisi tərəfdaşlığına” səbəb olacağını açıqlamışdı.

**Daha asan və qısa yol...**

Qeyd etmək lazımdır ki, siyasi mütəxəssislər Ər-Riyadda nüvə arsenalının hipotetik şəkildə ortaya çıxması-



sənəd Amerika sənayesinə, işçilərinə və təchizat zəncirlərinə fayda verəcək, eyni zamanda Səudiyyə Ərəbistanının enerji ehtiyaclarının ödənilməsinə kömək edəcək. Bundan əlavə, sənədə görə, tərəflər eyni vaxtda ikitərəfli təhlükəsizlik sazişi imzalayıblar.

Kris Rayt bildirib ki, bu müqavilələr nüvə təhlükəsizliyi və yayılmamanın ən yüksək standartlarına cavab verir, dünyanın ən yaxşı nüvə texnologiyasına əsaslanır.

**Konqres nə deyəcək?**

Sənəd nəzərdən keçirilmək üçün Konqresə təqdim ediləcək. Bu arada, Reuters agentliyinin məlumatına görə, konqres üzvləri sənədi təsdiqləməkdən imtina edə bilərlər. Çünki Konqres üzvlərinin çoxu, xüsusən də hazırki dövrdə siyasi cəhətdən qeyri-sabit Yaxın Şərq ölkələrinə nüvə texnologiyasının ötürülməsini bəyənmir. “Bundan əlavə, əvvəlcə beynəlxalq müfəttişlərin nüvə texnologiyasının hərbi məqsədlər üçün sui-istifadə edilməməsini təmin etmək üçün ərazilərə nə dərəcədə çıxış əldə edə biləcəyi bəlli deyil”, - deyə Reuters qeyd edir.

Qeyd edək ki, uran zənginləşdirilməsi əsasən nüvə yaxın şərq müharibəsinə söykənir. Sülh danışıqları zamanı ABŞ İranın uranın zənginləşdirilməsindən imtinasında israrlı idi. Səudiyyə Ərəbistanı ilə əməkdaşlıq müqaviləsinin layihəsində bu cür fəaliyyətə icazə verilməsi isə məhz İranla danışıqların pozulmasından sonra baş tutub. Yeri gəlmişkən, indiyə qədər ABŞ nüvə elektrik stansiyaları tikdiyi ölkələrin uranı zənginləşdirməsinə və işlənmiş yanacağı özləri emal etməsinə qəti şəkildə qarşı çıxıb. Bundan əlavə, ABŞ ənənəvi olaraq tərəfdaşlarının Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) Əlavə Protokolunu imzalamasında israr edib. Bu, agentliyin müfəttişlərinə müvafiq ölkələrin nüvə obyektlərində ətraflı yoxlamalar aparmağa və orada elan edilməmiş hərbi fəaliyyətin aparılmamasını təmin etməyə imkan verir. Standart “123 Saziş”ə daxil olan bu tələbləri nəzərə alaraq, ABŞ-ın yanaşması dinc nüvə sektorunda aparıcı təchizatçılar arasında ən sərt hesab olunurdu, lakin indi amerikalılar “qızıl standartlarından” imtina etmiş kimi görünürlər.

CNN mənbələrinə görə, ABŞ beynəlxalq müfəttişləri nı regionda fərqli dövlətlərin də bu arzularını irəli sürəcəyini stimullaşdıracağını bildirirlər. Siyahıda isə tək İran yer almır - həm də Türkiyədə, BƏƏ-də və Misirdə oxşar istəklərin meydana çıxması təbii görünür. Ər-Riyad isə regional status-kvonun belə kəskin dəyişməsinin nəticələrinin gözlənilməz ola biləcəyini başa düşür və buna görə də hələlik heç bir tələsik addım atmamağa üstünlük verir.

Bir qism siyasi şərhçilər isə Səudiyyə Ərəbistanının dinc məqsədlər üçün uranın zənginləşdirilməsi planı həyata keçirdiyinə inanır. Onlar arqument olaraq hazırki proqram çərçivəsində nüvə silahı əldə edilməsinin uzun bir proses olduğunu deyirlər. Qeyd olunur ki, əgər Ər-Riyad nə vaxtsa nüvə arsenalını çəkindirici vasitə kimi əldə etmək istəyirsə, uranın 90 faizə qədər zənginləşdirilməsi və sonra döyüş başlığı yaratmaq kimi uzun, mürəkkəb və qanunsuz prosesdən keçməlidir. Nüvə silahı əldə etmək üçün isə daha qısa yol var. İddia olunur ki, Ər-Riyad üçün müttəfiqi Pakistandan nüvə arsenalı almaq daha asan olardı.

*SADİQ*

# ABŞ-da yeni şatdaun olacaqmı?

Supergüc dövlət olan Amerika Birləşmiş Ştatlarının (ABŞ) özünəməxsus maliyyə sistemi var. Bu ölkədə maliyyə ili 1 oktyabr - 30 sentyabra aralığını əhatə edir. Federal hökumətin fəaliyyətinin ardıcıllığının təmin edilməsi üçün qanunverici orqan - Konqres oktyabrın 1-dək müvafiq büdcə qanununu qəbul etməlidir. Əks halda həyati vacib sahələr istisna olmaqla hökumətin maliyyələşdirilməsi mümkün olmur. Bunun nəticəsi olaraq isə federal qurumların öz fəaliyyətlərini məcburi qaydada dayandırmaları -şatdaun riski yaranır. Bu isə büdcə qanununun vaxtında qəbul edilməsini əngəlləyib. Nəticədə, bəzi dövlət qurumlarının fəaliyyəti qısamüddətli dayanıb, lakin sonradan konsensus təmin edilib və böhran qısamüddətli olub.

**Hökumətin ən uzun müddətdə fəaliyyətsiz qalması**

Bütövlükdə, ABŞ tarixində 20 dəfə şatdaun hadisəsi baş verib. Diqqətçəkən əsas məqamlardan biri ondan ibarətdir ki, ölkədə ən uzun çəkən iki şatdaun məhz Donald Trampın əvvəlki və indiki prezidentlik dönəminə təsadüf edib. ABŞ

**Növbəti şatdaunla qarşılaşmamaq naminə - Trampdan xəbərdarlıq**

D.Tramp ölkəsinin böyük itkilər hesabına başa gələn yeni şatdaunla üzləşməsini istəmir. Buna görə də Konqresə öz xəbərdarlığını çatdırıb. “ABŞ Konqresi oktyabrın 1-dək federal administrasiyanın maliyyələşdirilməsi ilə bağlı qanun layihəsini qəbul etməsə, hökumətin sentyabr ayında fəaliyyətini dayandırması mümkündür”- deyə ABŞ Prezidenti bildirib.

Belə görünür ki, ABŞ-ın qanunverici orqanı Prezidentin həyəcan təbili çalmasının mə-




Bu günlərdə ABŞ Konqresinin Nümayəndələr Palatası federal idarələrin maliyyələşdirilməsinin bu il dekabrın 4-dək cari səviyyədə saxlanmasını nəzərdə tutan qanun layihəsini qəbul edib. Göründüyü kimi, bəhs olunan qanun layihəsi müvəqqəti xarakterlidir və ABŞ-ın növbəti maliyyə ilini tam əhatə etmir. Analitiklərin qənaətinə görə, Nümayəndələr Palatasının müvəqqəti xarakterli qanun qəbul etməsi əslində noyabrın 3-də keçiriləcək aralıq seçkiləri ərəfəsində maliyyə ilinin sonunadək şatdaunun qarşısını almağa yönəlib.

**ABŞ tarixində yaşanan şatdaunlar**

“Şatdaun” termini bağlamaq, bloklamaq, söndürmək anlamında işlədilir. ABŞ siyasətində isə bu termin qanunvericilik bazasının təmin edilməməsi səbəbindən hökumətin fəaliyyətini məcburi qaydada dayandırmasına şamil edilir.

ABŞ tarixi ilə bağlı araşdırmalar apardıqda aydın olur ki, şatdaunların baş verməsəbəbi ilk növbədə respublikaçılarla demokratlar arasında yaşanan siyasi rəqabətdən qaynaqlanır. Başqa sözlə desək, Konqresdə iki bloku təmsil edən deputatların bir sıra hallarda siyasi ambisiyalar ortaya qoymaları və məhz siyasi səbəblərə görə büdcə qanununun qəbuluna maneçilik törətmələri, səs verməyərək onu bloklamaları yeni maliyyə ilində hökuməti, necə deyərlər, pulsuz qoyur. Bu halda isə təbii ki, fəaliyyət də mümkün olmur.

ABŞ tarixində ilk şatdaun 1976-cı ilin sentyabr-oktyabr aylarında, prezident Cerald Fordun administrasiyası dövründə baş verib. Həmin vaxt Konqreslə prezident arasında büdcə anlaşmazlığı səbəbindən 10 gün davam edən hökumət böhranı qeydə alınıb. Belə ki, Prezident Cerald Fordun Əmək və Sağlamlıq Departamentlərinin büdcəsini artırmaq barədə qanun layihəsinə veto qoyması, daha sonra Konqresin bu vetonu ləğv etməsi büd- federal hökumətinin sonuncu dəfə ötən ilin payızında fəaliyyətini qismən dayandırması 43 gün davam etməklə ölkə tarixində ən uzunmüddətli fəaliyyətsizlik olub və Donald Trampın ilk prezidentlik dövründə (2017-2021) qeydə alınan 34 günlük rekordu təzələyib.

Ötən il büdcə qanununun qəbul edilməsinin ləngiməsi yenə də demokratlarla respublikaçıların mövqeyinin əks qütblərdə dayanması ilə bağlı olub. Məsələn, demokratlar sığorta sahəsindki problemləri qabartmaqla bu sahəyə əlavə 350 milyard dollar ayrılmasını tələb edirdilər ki, respublikaçılar da imkanları nəzərə almaqla bununla razılaşmırdılar. Həmçinin bir sıra digər məsələlər ətrafında da konsensusu təmin etmək mümkün olmurdu. O cümlədən cinsi azlıqlarla bağlı, sosial ödənişlərlə bağlı, Ukraynaya hərbi və maddi yardımların artırılması ilə bağlı məsələlərdə də ciddi fikir ayrılığı yaşanırdı.

ABŞ tarixində gün sayına görə ən uzun çəkən şatdauna Prezident Donald Trampın müvəqqəti maliyyələşdirmə qətnaməsini imzalaması ilə son qoyulub. ABŞ Nümayəndələr Palatası da federal hökumətin 30 yanvar 2026-cı ilə qədər maliyyələşdirilməsini nəzərdə tutan və daha əvvəl Senat tərəfindən qəbul edilən sənədi dəstəkləyib. 222 qanunverici sənədin lehinə, 209-u isə əleyhinə səs verib. Səsvermədən dərhal sonra ABŞ Prezidenti Donald Tramp müvəqqəti qanun layihəsini imzalayıb. Beləliklə də, ABŞ tarixində ən uzun şatdaun başa çatıb. Qeyd edək ki, ötən maliyyə ilində baş verən şatdaun nəticəsində təxminən 700.000 federal işçi məzuniyyətə göndərilmişdi. Həmçinin Milli Qvardiya qoşunları, polis məmurları, hava nəqliyyatı dispetçerləri və nəqliyyat işçiləri maaşsız işləmək məcburiyyətində qalmışdılar. Təbii ki, maaşsız çalışmaqla razılaşmayan çoxlu sayda hökumət təmsilçisi könüllü şəkildə vəzifəsini tərk etmişdi.

suliyyətini anlayıb və Nümayəndələr Palatası federal idarələrin maliyyələşdirilməsinin bu il dekabrın 4-dək cari səviyyədə saxlanmasını nəzərdə tutan qanun layihəsini qəbul edib. Qanun layihəsini 220 konqresmen dəstəkləyib, 205 nəfər isə əleyhinə çıxış edib.

Qanun layihəsi baxılmaq üçün Senata təqdim olunacaq. “The Hill” qeyd edir ki, ən azı 60 senatorun dəstəyini əldə etmək zərurəti və demokratların mümkün müqaviməti səbəbindən onun qəbulu çətinliklərlə üzləşə bilər ki, bu da yeni şatdaun ehtimalını gücləndirir.

**Rekord müdafiə büdcəsi**

ABŞ Konqresinin Nümayəndələr Palatası iyulun 23-də həmçinin 2027-ci maliyyə ili üçün nəzərdə tutulan Milli Müdafiənin Səlahiyyətləndirilməsi Aktını qəbul edib. Sənəd 1,15 trilyon dollar həcmində rekord müdafiə xərclərini nəzərdə tutur.

Qanun layihəsinin lehinə 216, əleyhinə isə 212 konqresmen səs verib. Əvvəlki illərdən fərqli olaraq, sənəd bu dəfə hər iki partiyanın geniş dəstəyi olmadan minimal səs üstünlüyü ilə qəbul edilib.

Sənədə əsasən, 2027-ci ildə Pentaqonun maliyyələşdirilməsi 2026-cı illə müqayisədə təxminən 250 milyard dollar artırılacaq. Əlavə vəsaitin bir hissəsinin hərbi qulluqçuların maaşlarının 5-7 faiz artırılmasına yönəldilməsi planlaşdırılır.

Qanun layihəsində, həmçinin ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə hazırlanan “Golden Dome” (Qızıl Günbəz) adlı yeni raketdən müdafiə sisteminin maliyyələşdirilməsi də nəzərdə tutulur.

Bundan başqa, Nümayəndələr Palatası Müdafiə Nazirliyinin adının Müharibə Nazirliyi ilə əvəz olunmasını nəzərdə tutan müddəanı da dəstəkləyib.

Qanun layihəsinin qüvvəyə minməsi üçün onun ABŞ Senatı tərəfindən də təsdiqlənməsi tələb olunur.

*Mübariz FEYİZLİ*

# Yaxın Şərq yenidən od-alov içində...

Yaxın Şərqdə vəziyyət yenidən gərginləşib. Hazırda region od-alov içindədir. Pakistanın və bir sıra digər ölkələrin vasitəçiliyi ilə ABŞ-la İran arasında 14 maddəlik çərçivə sənədinin razılaşdırılması cari ilin fevralından başlayan və bütün dünyanın təsirləndiyi dəhşətli müharibənin nəhayət sonuclanacağına müəyyən ümidlər yaratsa da, gözləntilər doğrulmadı. Şimali Atlantika Alyansının (NATO) iyulun birinci ongünlüyündə Ankarada baş tutan 36-cı Zirvə Görüşündə ABŞ Prezidenti Donald Tramp atəşkəs rejiminin bitdiyini bildirən kritik əmri imzalayıb və bundan sonra İrana zərbələr endirilməsinin yeni dalğası başlayıb. “İranla atəşkəslə bağlı razılaşma bitdi”, - deyə D.Tramp NATO-nun Baş katibi Mark Rutte ilə mətbuata açıqlamasında bildirib.

## Dəhşətli gecə hücumları

D.Tramp və onun komandasında yer alan digər rəsmilər müvəqqəti atəşkəsdən sonra müharibənin yeni dalğasına başlanılmasını İranın NATO sammiti ərəfəsində Hörmüz boğazından keçən Qətərə məxsus gəmiyə atəş açması ilə əlaqələndiriblər. Bu hadisə, necə deyərlər, bardaqdakı suyu daşdıran son damla olub.

ABŞ hərbi qüvvələri İrana qarşı zərbələri əsasən gecə vaxtı həyata keçirirlər. Artıq dəhşətli gecə zərbələrinin sayı 12-yə çatıb. ABŞ Mərkəzi Komandanlığından (CENTCOM) gələn məlumatlarda bildirilir ki, gecə əməliyyatları zamanı İranın hərbi komanda məntəqələri, dəniz obyektləri, təyyarə anqarları, pilotsuz uçuş aparatlarının saxlanıldığı məntəqələr və hərbi logistika infrastrukturu hədəfə alınıb. Məqsədin İranın Hörmüz boğazında kommersiya gəmiçiliyini təhdid etmək imkanlarını zəiflətmək olduğu qeyd edilir. Qurumun açıqlamasında, həmçinin son üç ay ərzində İranın Hörmüz boğazından keçən 30-dan çox ticarət gəmisinə hücum etdiyi iddia olunub. CENTCOM bu hücumların yüzlərlə dənizçinin həyatını təhlükə altına saldığını və beynəlxalq gəmiçiliyə mənfi təsir göstərdiyini bildirib. “Əməliyyat İranın bölgə sularında hərəkət edən mülki dənizçilər və kommersiya gəmiləri üçün təhdid yaratmaq imkanlarını daha da zəiflətmək məqsədilə davam etdiriləcək”, - deyə CENTCOM İrana qarşı başa çatdırılan 12-ci gecə əməliyyatını şərh edərkən bildirib.

Ölkəyə qarşı 12-ci gecə əməliyyatının keçirildiyini İran tərəfi də təsdiqləyib. Yerli mətbuatda yayılan məlumatlarda ABŞ ordusunun İranın Hörmüz boğazı yaxınlığında yerləşən Hörmüzqan vilayətinin Sirik şəhərinə və İraq sərhədinə yaxın Xuzistan vilayətindəki Əhvaz şəhərinə hücum həyata keçirdiyi bildirilir. ABŞ tərəfindən Əhvaz, Ramşir və Sirik şəhərləri hədəf alınıb. Xuzistan Valiliyi Əhvaz şəhərinin bəzi nöqtələrinə ABŞ tərəfindən raket zərbələri endirildiyini açıqlayıb. Ramşir və Sirik şəhərlərinə hücumlar təşkil edilib.

Öz növbəsində İran da səssiz qalmır. İranın ABŞ-a birbaşa zərbələr endirmək imkanı yoxdur. Buna görə də ABŞ-ın regiondakı hərbi bazaları və müttəfiqləri hədəfə alınır. Gecə zərbələrinə cavab olaraq İran ABŞ-ın Küveyt, İordaniya, Bəhreyn kimi region ölkələrindəki hərbi bazalarına çoxsaylı PUA hücumları təşkil edib və raketlər atıb.

Gecə zərbələrindən geriyə yanğınlar və miqyası çox böyük olan dağıntılar qalır. Eyni zamanda, hər iki tərəfdə canlı qüvvə itkilərinin sayı getdikcə artır. İran Səhiyyə Nazirliyinin yaydığı məlumatda vurğulanır ki, ABŞ-ın iyunun 27-dən bəri hava hücumları nəticəsində 53 nəfər ölüb, 592 yaralı var. Bu barədə İran Səhiyyə Nazirliyinin iyulun 22-də “X” sosial media platformasında dərc olunmuş açıqlamasında bildirilib. Nazirliyin ictimaiyyətlə əlaqələr və informasiya mərkəzinin rəhbəri Hüseyn Kirmanpur bildirib ki, itkilər 27 iyun saat 8:30-dan çərşənbə günü saat 05:30-dək qeydə alınıb.

O əlavə edib ki, yaralanan 535 nəfər tibbi yardım aldıqdan sonra evə buraxılıb, 36 nəfər xəstəxanada qalıb, 21 nəfər isə hadisə yerində müalicə alıb.

ABŞ-ın hərbi üstünlüyü aşkar olsa da, bu ölkə də itkilərə məruz qalır. Müharibə naziri Pit Heqset Senat dinləmələrində ABŞ-ın İrana qarşı müharibəsinin indiyə qədər 37,5 milyard dollara başa gəldiyini bildirib.

Heqset əlavə müharibə maliyyələşdirməsinin təcili və zəruri olduğunu və Prezident Donald Trampın təklif etdiyi 1,5 trilyon dollarlıq müdafiə büdcəsinin orduya investisiya olduğunu bildirib. “Bu vəsaitlər olmadan biz ciddi çatışmazlıqlarla üzləşirik”, - deyə nazir qeyd edib.

Həmçinin ABŞ-ın canlı qüvvə itkilərinin sayı da açıqlanıb. “Associated Press” agentliyinin məlumatına əsasən ABŞ-ın İrana qarşı hərbi əməliyyatları zamanı yaralanan amerikalı hərbçilərinin sayı 500-ü ötüb. Bu rəqəm Pentaqonun açıqladığı rəsmi statistikadan yüksəkdir. Pentaqon indiyədək 482 hərbçinin yaralandığını açıqlayıb. Pentaqonun sözçüsü Şon Parnell isə son iki həftə ərzində İrana qarşı əməliyyatlarda təxminən 100 amerikalı hərbçinin müxtəlif dərəcəli xəsarətlər aldığını qeyd edib.

## Hər ötən gün itkilər artır

Məlumata əsasən, indiyədək münaqişə zamanı ümumilikdə 18 ABŞ hərbçisi həlak olub. O cümlədən İranın gecə hücumlarına cavab olaraq İordaniyaya endirdiyi raket zərbəsi nəticəsində iki ABŞ hərbçisi həlak olub, biri isə itkin düşüb. Məlumata görə, hücum zamanı daha dörd ABŞ hərbçisi müalicə üçün İordaniyadakı xəstəxanalara təxliyə edilib. Onların vəziyyəti stabilləşdiyi üçün artıq xəstəxanadan buraxıldıqları bildirilib. Yüngül xəsarət alan digər hərbi qulluqçular isə yenidən xidmətə qayıdıblar.

Həmçinin rəsmi Vaşinqton Yaxın Şərqdə vəziyyətin yenidən gərginləşməsi ilə əlaqədar dünya ölkələrinə və öz vətəndaşlarına ehtiyatlı olmaqla bağlı çağırışlar edib. Dövlət Departamenti dünyanın müxtəlif ölkələrində olan ABŞ vətəndaşlarına xəbərdarlıq ünvanlayıb. Xəbərdarlıqda Yaxın Şərqdəki təhlükəsizlik mühitinin mürəkkəb olaraq qaldığı və gözlənilməz eskalasiya riskinin yüksək olduğu bildirilir. “Hazırda Yaxın Şərqdə olan amerikalılar ehtiyatlı davranmalı, yüksək sayıqlıq nümayiş etdirməli, uçuşların ləğvinə, hava məkanının vaxtaşırı bağlanmasına və ehtimal olunan səyahət məhdudiyyətlərinə hazır olmalıdırlar. Bölgədəki bəzi aviaşirkətlər əvvəlki uçuş cədvəllərinin bərpasını təxirə salıb, digərləri isə müəyyən marşrutları ləğv edib”, - deyə xəbərdarlıqda qeyd olunur.

Həmçinin bildirilir ki, Yaxın Şərqdə və bölgədən kənarda ABŞ-ın diplomatik obyektləri hədəf alınıb.

**Rəsmi Vaşinqton Yaxın Şərqdə vəziyyətin yenidən gərginləşməsi ilə əlaqədar dünya ölkələrinə və öz vətəndaşlarına ehtiyatlı olmaqla bağlı çağırışlar edib. Dövlət Departamenti dünyanın müxtəlif ölkələrində olan ABŞ vətəndaşlarına xəbərdarlıq ünvanlayıb. Xəbərdarlıqda Yaxın Şərqdəki təhlükəsizlik mühitinin mürəkkəb olaraq qaldığı və gözlənilməz eskalasiya riskinin yüksək olduğu bildirilir. “Hazırda Yaxın Şərqdə olan amerikalılar ehtiyatlı davranmalı, yüksək sayıqlıq nümayiş etdirməli, uçuşların ləğvinə, hava məkanının vaxtaşırı bağlanmasına və ehtimal olunan səyahət məhdudiyyətlərinə hazır olmalıdırlar. Bölgədəki bəzi aviaşirkətlər əvvəlki uçuş cədvəllərinin bərpasını təxirə salıb, digərləri isə müəyyən marşrutları ləğv edib”, - deyə xəbərdarlıqda qeyd olunur**



## Məhvə aparan yol - Hörmüz ətrafında artan gərginlik

Hörmüz boğazının müharibənin əsas düyün nöqtəsinə çevrildiyi reallığı ortadadır. İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) dar dəniz yolunun onların nəzarəti altında olduğunu bəyan edir. İran tərəfi o mövqedən çıxış edir ki, Hörmüz boğazından gəmilərin keçidi bu ölkə ilə razılaşdırılmalı və tənzimlənməlidir.

İran İnqilab Keşikçiləri Korpusu Hörmüz boğazında alternativ marşrutlardan istifadə edilməməsi ilə bağlı xəbərdarlıq ünvanlayıb. Bu barədə SEPAH-ın Hərbi Dəniz Qüvvələrinin yaydığı bəyanatda bildirilir. Bəyanatda deyilir: “Hörmüz boğazının giriş və çıxışı məlumdur və tam nəzarətimiz altındadır. Alternativ marşrutlar təhlükəsiz deyil və ciddi risk daşıyır. Hörmüz boğazında alternativ marşrutlardan istifadənin geri dönməz nəticələrə səbəb ola biləcəyi barədə xəbərdarlıq edirik”.

Eyni zamanda, İran ordusunun Hörmüz boğazının cənub hissəsindən keçən dəniz marşrutlarından birini minaladığına dair xəbərlər yayılıb. Bu barədə İranın IRIB telekanalı ölkənin hərbi komandanlığına istinadən məlumat verib. Telekanalın məlumatına görə, İran ordusunun bəyanatında Hörmüz boğazından keçən minalanmış cənub yolunun “məhvə aparan yol” olduğu vurğulanıb.

Rəsmi Vaşinqton isə tamam fərqli məzmunda açıqlamalar verir. CENTCOM İran İslam İnqilabı Keşikçiləri Korpusunun Hörmüz boğazının giriş və çıxışına nəzarət etməsinə dair növbəti iddiasını təkzib edib. Qurum bununla bağlı bəyanat yayıb. Bəyanatda deyilir: “Bu məlumat yalandır. İran Hörmüz boğazına nəzarət etmir. Beynəlxalq dəniz yolu SEPAH-ın təhdid və hücumlarına baxmayaraq, tranzit üçün açıq qalır”.

Açıqlamada vurğulanıb ki, SEPAH gəmiləri boğazdan yalnız özünün müəyyən etdiyi marşrutla keçməyə məcbur edir. CENTCOM ticarət gəmilərinin ABŞ ordusunun dəstəyi ilə boğazdan istifadəni davam etdirdiyini diqqətə çatdırıb. Məlumatda bildirilir ki, may ayının əvvəlindən bəri ABŞ qüvvələri 900-dən çox gəminin boğazdan təhlükəsiz keçidini təmin edib.

## Mülki infrastruktur təhdid altında

Yaxın Şərqdə vəziyyətin yenidən gərginləşməsi fonunda mülki infrastruktur da təhdid altında qalıb. “Bundan sonra İran Hörmüz boğazında hər hansı gəmiyə raket, dron, eləcə də digər cihaz və ya silahla atəş açsa, Amerika Birləşmiş Ştatları həmin an bu ölkənin 1 körpüsünü və ya elektrik stansiyasını bombalayacaq”. Bunu Donald Tramp “Truth” sosial şəbəkə hesabında yazıb.

O bildirib ki, paytaxt Tehran və ətrafı da daxil olmaqla, ölkə ərazisindəki bütün körpülərə və ya elektrik stansiyalarına zərbələr endirilə bilər.

Trampın bu mesajına Tehrandan cavab gecikməyib. SEPAH D.Trampın İranın infrastrukturuna mümkün hücumlarla bağlı təhdidlərinə cavab olaraq xəbərdarlıq edib ki, ölkənin körpülərinə və ya elektrik stansiyalarına zərbə endiriləcəyi təqdirdə, ABŞ-ın bölgədəki müttəfiqlərinin elektrik enerjisi təchizatı kəsiləcək.

Bu barədə İran İnqilab Keşikçiləri Korpusunun Hərbi Hava və Kosmik Qüvvələrinin komandanı briqada generalı Məcid Musəvi bəyanatında bildirib.

“Körpülərimizə və ya elektrik stansiyalarımıza hücum edilərsə, ABŞ-ın bölgədəki müttəfiqlərinin elektrik enerjisi kəsiləcək”, - deyə o vurğulayıb

## Bab əl-Məndəb boğazında artan gərginlik - dəniz ticarəti daha da çətinləşə bilər

Yaxın Şərqdə artan geosiyasi gərginlik Hörmüz boğazından Bab əl-Məndəb boğazına qədər yayılıb. Xarici nəşrlərdə dərc olunan analitik materiallarda vurğulanır ki, ikinci vacib dəniz marşrutunun bağlanması təhlükəsi qlobal enerji təchizatı və dəniz gəmiçiliyində pozuntularla bağlı narahatlıqları da artırıb.

Davam edən ABŞ-İran münaqişəsi Hörmüz boğazından keçən kommersiya gəmiçiliyini, demək olar ki, dayandırıb. Bu vəziyyət neftin qiymətlərinin artmasına səbəb olub, “Brent” markalı xam neftin qiyməti bir barel üçün 90 dollara yaxınlaşıb.

İranın dəstəklədiyi yəmənli husilər ABŞ ilə İran arasında artan gərginlik fonunda Səudiyyə Ərəbistanına blokada tətbiq edib və Hörmüz boğazındakı hadisələrdən sonra Bab əl-Məndəbdə də gərginliyi artırıb.

Husilər iddia edirlər ki, Ər-Riyad Yəmənin Səna beynəlxalq hava limanına hava hücumu həyata keçirib və İranda dəfn mərasimindən qayıdan husi liderlərini daşıyan təyyarəni hədəf alıb. Onlar qisas aktı olaraq, Səudiyyə Ərəbistanının Əbha beynəlxalq hava limanına raketlər və pilotsuz uçuş aparatları (PUA) ilə hücum ediblər.

Bəhs olunan qrup Səudiyyə Ərəbistanı ilə əlaqəli gəmiçilik üçün Bab əl-Məndəb boğazını bağlayıb və Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi koalisiyaya qarşı Yəmən hava məkanında və limanlarda blokada tətbiq edib.

Bəyanatdan sonra Bab əl-Məndəb boğazından keçən xam neft tankerlərinin sayı 69 faiz azalıb. Bazar ertəsi günü boğazdan təxminən 16 gəmi keçib, çərşənbə axşamı isə bu rəqəm beşə düşüb. Çərşənbə günü Bab əl-Məndəb boğazından cəmi doqquz gəmi keçib.

“ING Group” şirkətinin baş nəqliyyat və logistika iqtisadçısı Riko Luman bildirib ki, yeni hücumların olmamasına rəğmən husilərin açıqlaması Bab əl-Məndəb boğazından keçməklə bağlı riskləri dərhal artırıb, yükdaşımaların qiymətləri və sığorta haqları qalxıb və bu da əlavə xərclərə səbəb olub. O əlavə edib: “Bu, neft bazarlarına əlavə təzyiq göstərir, çünki Yanbu limanı Səudiyyə Ərəbistanı üçün alternativ ixrac mərkəzi kimi daha intensiv istifadə olunur. Təhlükəni aradan qaldırmaq üçün Aralıq dənizi vasitəsilə Afrikanın şimalına üzmək daha çox vaxt aparacaq. Konteyner daşımaları üçün bərpa planları da təxirə salına bilər. Çünki “Maersk” və “Hapag-Lloyd” Qırmızı dəniz vasitəsilə bəzi xidmətləri bərpa edib ki, bu da Afrika ətrafında uzunmüddətli dolama yollardan istifadəyə səbəb ola bilər”.

*Mübariz ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




## Vüqar Həşimov Azərbaycan şahmatının unudulmayan simasıdır...




# Zəka, iradə və qələbənin simvolu!



Bu gün Azərbaycan şahmat tarixinin parlaq simalarından, beynəlxalq arenada ölkəmizin adını böyük uğurla təmsil etmiş görkəmli qrossmeyster Vüqar Həşimovun doğum günüdür. Vüqar Həşimov təkcə qazandığı qələbələrlə deyil, həm də yüksək intellekti, mübariz ruhu və təvazökarlığı ilə milyonlarla insanın rəğbətini qazanmış biri kimi yaddaşlarda yaşayır. 6 yaşından atasının köməyi ilə şahmatla məşğul olmağa başlayıb. Kiçik yaşlarında 3 dəfə ölkə, 4 dəfə Avropa qalibi olub. Lakin ağır xəstəlik Azərbaycan şahmatını Vüqarsız qoydu. Onun vəfatı təkcə Azərbaycan deyil, bütün dünya şahmatı üçün böyük itkidir.

Vüqar Həşimov karyerasının pik nöqtəsində FİDE-nin reytinq cədvəlində 6-cı pilləyə qədər yüksəlməyi bacarmışdı. Üççat Azərbaycan çempionu olmuş və 2009-cu ildə Azərbaycan yığmasının Avropa çempionu olmasında "qələbə qolunu" vuran Vüqar Həşimov, təəssüf ki, beyin xərçənginə qalib gələ bilmədi. O, 1995, 1996 və 1998-ci illərdə Azərbaycan çempionu olub. 1996-2001-ci illərdə Avropa və dünya çempionatlarında 7 dəfə mükafata layiq görülüb. 1999-cu ildə beynəlxalq şahmat ustası, 2002-ci ildə isə qrossmeyster tituluna yiyələnib.

Vüqar Həşimov dörd dəfə - 2002, 2004, 2006 və 2008-ci illərdə şahmat olimpiadalarında Azərbaycan yığma komandasının heyətində çıxış edib. 2009-cu il mayın 7-9-da Heydər Əliyev kuboku uğrunda yarışlar çərçivəsində Bakıda dünya yığmasına qarşı çıxış edən Azərbaycan yığmasının heyətinə daxil olub. 2007-ci ildə şahmat üzrə Avropa komanda çempionatında bürünc medal qazanıb.

2011-ci ildə Avropa çempionatında yığma komandanın heyətində vitse-çempion, 2010-2011-ci illərdə Recio Emiliyada (İtaliya) keçirilən turnirdə qalib olub. FİDE reytinqində ən yüksək nailiyyəti 6-cı yer olan Vüqar Həşimov 26 yaşlı Teymur Rəcəbov və 28 yaşlı Şəhriyar Məmmədyarovla birgə çox güclü bir komanda təşkil edirdilər və onların iştirak etdiyi Azərbaycan milli komandası daima beynəlxalq yarışlarda qızıl medallara iddialı olub.

Ağır xəstəliklə mübarizə aparmasına baxmayaraq, iradəsini heç vaxt itirməyən, həyat eşqini və şahmata olan sonsuz sevgisini qoruyub saxlayan Vüqar Həşimov 2014-cü ildə cəmi 27 yaşında dünyasını dəyişib. Onun adı Azərbaycan idman tarixində silinməz iz buraxıb, yarımçıq qalan arzuları isə bu gün ölkəmizin gənc şahmatçılarının yeni qələbələrində yaşamağa davam edir.

24 iyul 2014-cü ildə Vüqar Həşimovun qəbirüstü abidəsinin açılış mərasimi olub. Bürüncdən olan abidənin müəllifi məşhur heykəltəraş Azad Əliyevdir.

***Yeganə BAYRAMOVA***

# Dövlət bağçası, yoxsa özəl?

## Valideynlər çətin sual qarşısında...

Uşağın ilk dəfə ailə mühitindən çıxaraq sosial həyata qədəm qoyduğu məkan bağçadır. Bu müəssisələr uşaqları intellektual cəhətdən inkişaf etdirən mərkəz, həmçinin əyləncələrini təmin edən istirahət məkanıdır. Bütün bu keyfiyyətləri ilə yanaşı bağça həm də iş-güc arxasınca getməyə məcbur olan valideynlərin etibar etdiyi müəssisədir.

Əksər valideynlər üçün bağça seçimində əsas meyar evə yaxın məsafədə olması, normal qidalanma, gündəlik məşğələ və təlim proqramlarının yerinə yetirilməsidir. Eləcə də idman və digər məşğələlərlə bağlı əlavə imkanlar seçim zamanı nəzərə alınan amillərdəndir. Lakin sadalanan şəraiti olan uşaq bağçalarının elə də çox olmaması valideynləri seçim qarşısında qoyur - özəl, yoxsa dövlət bağçası?

Son illər ölkəmizdə həm dövlət, həm də özəl bağçaların sayının artması valideynlərə daha geniş seçim imkanı yaradıb. Ancaq seçim imkanlarının çoxalması qərar vermə prosesini daha da mürəkkəbləşdirib, çünki hər iki sistemin özünəməxsus üstünlükləri mövcuddur.

**Bağçanın keyfiyyəti qiymətlə ölçülmür**

Təhsil ekspert Elçin Əfəndi "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, "dövlət bağçası yaxşıdır" və ya "özəl bağça daha üstündür" kimi qəti fikirlər doğru yanaşma deyil. Ekspertin sözlərinə görə, bağçanın keyfiyyətini müəyyən edən əsas amillər bina və ya ödəniş deyil, orada çalışan pedaqoqların peşəkarlığı, uşaqlarla münasibəti, təlim proqramının məzmunu, təhlükəsizlik tədbirləri, psixoloji mühit və valideynlərlə əməkdaşlığın səviyyəsidir: "Dövlət bağçalarının ən mühüm üstünlüyü onların geniş əhali kütləsi üçün əlçatan olması, ailələrin maliyyə yükünü minimuma endirməsi və uşaqların müxtəlif sosial təbəqələrdən olan həmyaşıdları ilə birlikdə böyüməsinə imkan yaratmasıdır. Bu da erkən yaşlardan sosial inteqrasiyanın və fərqli mühitlərə uyğunlaşma bacarığının formalaşmasına müsbət təsir göstərir. Lakin bəzi hallarda qrupların sayca çox olması, fərdi yanaşma imkanlarının məhdudlaşması və maddi-texniki bazanın bütün müəssisələrdə eyni səviyyədə olmaması valideynlərin narahatlıq doğuran məsələləri sırasında yer alır".

**Özəl bağça seçərkən reklama aldanmaq olmaz...**

Ekspert qeyd edib ki, özəl bağçalar adətən daha kiçik qruplar, fərdi inkişaf proqramları, xarici dil dərsləri, müxtəlif yaradıcılıq və idman məşğələləri, müasir tədris resursları və çevik idarətmə sistemi ilə diqqət çəkir: "Amma burada yüksək ödəniş bütün ailələr üçün həmin müəssisələri əlçatan etmir. Bəzi hallarda reklam edilən xidmətlərin real keyfiyyəti ilə təqdim olunan imkanlar arasında fərqlər müşahidə oluna bilir. Bu da valideynlərin seçim zamanı yalnız reklamlara deyil, bağçanın gündəlik fəaliyyətinə və real nəticələrinə diqqət yetirməsini zəruri edir".

**Valideynlər nələrə diqqət etməlidir?**

E.Əfəndinin fikrincə, valideynlər bağça seçərkən ilk növbədə müəllimlərin uşaqlarla necə ünsiyyət qurduğunu müşahidə etməli, uşaqların emosional vəziyyətinə diqqət yetirməli, təhlükəsizlik qaydalarının necə təmin olunduğunu araşdırmalıdır: "Eyni zamanda valideynlər qidalanma şəraitini qiymətləndirməli, gündəlik fəaliyyət planı ilə tanış olmalı və yalnız bundan sonra qərar verməlidirlər. Çünki erkən yaş dövründə uşağın psixoloji rahatlığı onun gələcək akademik nailiyyətlərindən daha böyük əhəmiyyət daşıyır.

**Doğru seçim üçün nələrə diqqət etməli?**



Digər mühüm məqam ondan ibarətdir ki, bəzi valideynlər bağçanın əsas üstünlüyünü uşağa erkən yaşdan oxu, yazı və riyaziyyat öyrədilməsində görürlər. Beynəlxalq pedaqoji yanaşmalar göstərir ki, məktəbəqədər dövrdə əsas məqsəd uşağın sosial, emosional, nitq, yaradıcı düşüncə və problem həll etmə bacarıqlarının inkişaf etdirilməsi olmalıdır. Məhz bu bacarıqlar gələcək təhsil uğurlarının təməlini təşkil edir".

**Uşağın sevərək getdiyi bağça ən doğru seçimdir**

Ekspertin sözlərinə görə, ən yaxşı bağça isə uşağın hər gün həvəslə getdiyi, özünü təhlükəsiz hiss etdiyi, müəllimlərinə etibar etdiyi, oyun vasitəsilə öyrəndiyi, suallar verməkdən çəkinmədiyi və fərdi xüsusiyyətlərinə hörmətlə yanaşılan mühitdir. Məlumdur ki, məktəbəqədər təhsilin əsas məqsədi yalnız bilik vermək deyil, sağlam, özünəinamlı və ünsiyyətcil şəxsiyyət formalaşdırmaqdır. Beləliklə, dövlət və özəl bağçalar arasında seçim edərkən əsas meyar müəssisənin statusu deyil, təqdim etdiyi təhsil mühiti, pedaqoji keyfiyyəti və uşağın ehtiyaclarına uyğunluğu olmalıdır. Uğurlu gələcəyin təməli bahalı və ya pulsuz təhsil müəssisəsində deyil, sevgi, qayğı, peşəkar yanaşma və sağlam inkişaf mühitinin təmin olunduğu bağçada qoyulur".

**Özəl bağçalarda qiymət artımının qarşısı alınacaq...**

MÜTDA direktor müavini Vəfa Yaqublu bildirib ki, özəl məktəbəqədər təhsil müəssisəsi xidmət haqqını artırdıqca onun müsabiqədə qalib olmaq şansı azalır. Onun sözlərinə görə, güclü qiymət artımı olmayacaq: "Valideynlərin seçimi olacaq ki, bir neçə müəssisə arasından daha uyğun xidmət haqqı təklif edənlə müqavilə bağlasın. Özəl bağçalarla imzalanan müqavilələrin 10 aylıq müddətə bağlanmasına səbəb adətən yay aylarında - iyul-avqustda uşaq sayının azalmasıdır. İkinci tərəfdən, əgər həmin müəssisə növbəti il yenə müsabiqədə qalib olsa, valideyn əlbəttə ki, uşağını həmin bağçaya qoymağa davam edəcək. Bağça qalib gəlməsə, o zaman valideyn başqa müəssisəni seçməli olacaq".

Qeyd edək ki, Baş nazir Əli Əsədovun müvafiq qərarı ilə "Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi qaydası" təsdiqlənib. Layihə üzrə hər təhsilalana göstərilən təhsil xidmətlərinə görə dövlət dəstəyinin aylıq həddi təhsil haqqının 70 %-i həcmində, lakin Bakı şəhəri üzrə 350 manat, digər regionlar üzrə isə 250 manat məbləğindən çox olmamaqla nəzərdə tutulur. Layihələrin icra müddəti 10 aydan çox olmamalıdır.

**Ölkəmizdə nə qədər uşaq bağçaya gedir?**

Məlumat üçün bildirək ki, Azərbaycanda 24 mindən çox 1-3 yaşlı körpə bağçaya gedir. Bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən (MÜTDA) məlumat verilib.

Bildirilib ki, ümumilikdə 1-3 yaş aralığında olan 24 427 körpə Elm və Təhsil Nazirliyinin tabeliyində olan 1 803 körpələr evi və körpələr evi-uşaq bağçasında təlim-tərbiyə prosesindədir.

Bundan başqa, 3 yaşdan yuxarı 88 993 şəxs isə 1 799 körpələr evi və körpələr evi-uşaq bağçasında təhsil alır.

Qeyd edək ki, 2025-2026-cı tədris ilində ölkə üzrə 107 348 uşaq dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilə cəlb edilib.

***Yeganə BAYRAMOVA***

## Allah rəhmət eləsin!

BDU-nun Tətbiqi Riyaziyyat İnstitutunun direktoru akademik Fikrət Əliyev və institutun kollektivi akademik Asəf Hacıyevə bacısı

**RAYİHƏ HACIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4490**
**Sifariş: 934**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova